Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

16-18 MAY 2020-ci il

№ 79 (4210)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# VATİKAN SƏFİRİ PAŞİNYANIN SİQARET QAÇAQMALÇILIĞINI İFŞA ETDİ - «TƏYYARƏ KRASNODARDA TUTULDU»...

■ səh. 7 ■



## Trampın İlham Əliyevə şəxsi məktubu və Azərbaycanın suverenliyinə birmənalı dəstək - qondarma «DQR»-i tanıtmaq istəyən erməni lobbisinə ismarıc...

■ səh. 3 ■



Ordumuzun 18-22 may təlimlərinin Ermənistanı narahat edən məzmunu - təmas xəttində və hücum xarakterli...

■ səh. 8 ■

Milli Şuranın açıq söyüşlərlə dolu videoiclası istefalara səbəb oldu - Eldəniz Quliyev...

■ səh. 5 ■



Kamran Əliyev prokurorluq sistemində çoxillik problemin həllinə başladı - qanunçuluğa dövlət nəzarəti yaşlılardan alınır...

■ səh. 5 ■

Tramp həm koronavirusla mübarizədə, həm də Qarabağ münaqişəsinin həllində Azərbaycanın yanında...

■ səh. 3 ■

Azərbaycan Ermənistan üzərində daha bir mühüm diplomatik qələbəyə imza atdı

■ səh. 9 ■

Azərbaycanın sədrliyi Türk Şurasını mühüm beynəlxalq quruma çevirir

■ səh. 6 ■

Azərbaycanda 65 yaşdan yuxarı insanlara qadağa tam götürülür, SMS icazə ləğv olunur - mayın 18-dən başlayır...

■ səh. 2-4 ■

Erməni faşizminin ifşasına daha bir fakt ABŞ Konqresindən gəldi

■ səh. 10 ■

Paşinyan dağılmış Ermənistanda "azərbaycanlı qaçqınlara" pulsuz mənzil paylayır - humanitar siyasət adı altında məkrli yalan...

■ səh. 8 ■

ÜST karantini zəiflətdiyi üçün Avropanın 32 ölkəsinə irad tutdu, Azərbaycan isə...

■ səh. 11 ■

Postpandemiya dövrü üçün dünya iqtisadiyyatı barədə bədbin proqnozlar Azərbaycandan yan keçir...

■ səh. 13 ■

■ səh. 13 ■

Azərbaycan ÜST xətti ilə bir sıra ölkələrə yeni yardımlara başlayır



■ səh. 7 ■

Ermənistanı Avropa ilə yumşaq viza rejiminə buraxmaq olarmı - faşistə heykəl qoyulursa, erməni mafiyası siyasi hakimiyyətə müdaxilə edirsə...



■ səh. 12 ■

Xaricdə və hansı şəraitdə dəfn edilmiş Sovet İttifaqı qəhrəmanlarımız - "Xatirə kitabı"nın maraqlı araşdırmaları...



■ səh. 14 ■

Azərbaycanda onlayn tədrisə böyük maneə - internetin sürətindən narazılıq var



■ səh. 14 ■

Pandemiya dövründə də şou-biznes adamları pozucu işlərindən qalmır - iftar süfrələri yenə işə düşüb...



## Dövlət Sərhəd Xidmətinin rəis müavini vəzifəsindən azad edildi

**Prezident İlham Əliyev general-leytenant** Əfqan Vəli oğlu Nağıyevin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin beynəlxalq əlaqələr üzrə müavini vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.

Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

## Böyük Britaniya Kraliçası II Elizabet Prezident İlham Əliyevi təbrik etdi



**Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabet Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Təbrikdə deyilir:"Bu çətin zamanda milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi salamlarımı və Azərbaycan xalqına ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram".

## Baş Prokurorluğa yeni şöbə rəisi təyin edilib



**Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun "Bakı-Xəbər"ə verdiyi bilgiyə görə, Baş prokuror Kamran Əliyevin imzaladığı əmrlə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və İnformasiya təminatı idarəsinin prokuroru Rəhim Səfərəliyev tutduğu vəzifədən azad olunaraq ona Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsinin rəisi vəzifəsinin icrası həvalə olunub.**

E.Sultanov həmçinin bildirib ki, R.Səfərəliyev 1992-2013-cü illərdə Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsində müxtəlif vəzifələrdə, 2013-2015-ci illərdə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində məsləhətçi və sektor müdiri, 2015-ci ildən isə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və İnformasiya təminatı idarəsinin prokuroru vəzifələrində çalışıb.

# CISCO şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib

**Mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**

Videokonfransda Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümov və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə iştirak ediblər.



# Azərbaycanda 65 yaşdan yuxarı insanlara qadağa tam götürülür, SMS icazə ləğv olunur - mayın 18-dən başlayır...



**Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı sanitar-epidemioloji vəziyyət, ölkə əhalisi arasında virusa yoluxanların ümumi sayı və xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qisminin yumşaldılması na qərar verilib.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, mövcud sanitar-epidemioloji vəziyyət, aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, 18 may 2020-ci il saat 00:00-dan etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə:

yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;

bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət 10 nəfərdən artıq qruplarda cəmləşməmək şərti ilə götürülür;

restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa olunur (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);

Qeyd edək ki, restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında xidmətlər pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Bu qaydalara riayət edilməsi ictimai iaşə obyektlərinin rəhbər şəxsləri və əməkdaşlarının, eyni zamanda xidmətlərdən istifadə edən müştərilərin birbaşa öhdəliyidir. Qaydaların pozulması qanunvericiliklə nəzərdə tutulmuş inzibati və cinayət məsuliyyəti yaradır.

Eyni zamanda 18 may 2020-ci il saat 00:00-dan bütün ölkə üzrə:

muzey və sərgi zallarının fəaliyyəti bərpa olunur;

65 yaşdan yuxarı insanların evdən çıxmasına tətbiq olunan qadağa götürülür. Bununla belə, 65 yaşdan yuxarı şəxslər COVID-19 virusuna yoluxmada risq qrupuna daxil olduğundan evdən zəruri hallarda çıxmaq tövsiyə edilir. Eyni zamanda insanların sıx toplaşdığı məkanlarda olmamaq, sosial məsafənin gözlənilməsi, qoruyucu vasitələrdən istifadə zəruridir.

Hazırda xüsusi karantin rejimi müddətində ölkə üzrə aşağıdakı məhdudiyyətlər qüvvədə qalır:

yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışın dayandırılması;

xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəzabərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Bakı şəhəri, Sumqayıt şəhəri və Abşeron rayonuna, eləcə də Gəncə və Lənkəran şəhərlərinə giriş-çıxış və ölkənin digər şəhər və rayonlarından yerustü və hava nəqliyyatı ilə sərnişin daşımalarının dayandırılması;

bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması;

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda dövlət qurumlarında işçilərin say həddinin məhdudlaşdırılması;

ASAN Xidmət və "DOST" xidmət mərkəzləri istisna olmaqla, digər dövlət orqanlarında vətəndaşların yerində qrup və fərdi qaydada qəbulunun dayandırılması;

dəfn mərasimləri istisna olmaqla dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsinin qadağan olunması;

toy məclislərinin təşkilinin qadağan olunması;

bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirlərin keçirilməsinin dayandırılması;

tədbirlərin təşkili üzrə xidmətlərin, o cümlədən bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkilinin qadağan olunması;

ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsinin qadağan olunması;

əyləncə məkanları, o cümlədən uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisindəki daxil olmaqla) fəaliyyətinin dayandırılması;

muzey və sərgi zalları istisna olmaqla, digər mədəniyyət obyektləri, eləcə də kinoteatrların, teatrların, idman zallarının fəaliyyətinin dayandırılması;

nəzdindəki ərzaq mağazaları və apteklər istisna olmaqla, ölkə ərazisində iri ticarət mərkəzlərinin və "Mall"arın fəaliyyətinin dayandırılması;

ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadənin qadağan olunması;

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə saat 18:00-dan 08:00-dək yerində xidmətin dayandırılması;

tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarətinin qadağan edilməsi;

idman, sağlamlıq-bərpa üzrə xidmətlərin dayandırılması (bu sahədə tibbi xidmətlər istisna olmaqla);

massaj və hamam xidmətlərinin göstərilməsi;

Fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara, metodiki göstərişlərə uyğun həyata keçirilməlidir.

Bir daha vurğulayırıq ki, COVID-19 virusu ilə mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməlidir. Bu baxımdan COVID-19 ilə bağlı hazırkı vəziyyətdə hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, evdən yalnız ciddi ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq qoruyucu vasitələrdən istifadə və sosial məsafənin gözlənilməsi mütləqdir.

# Trampın İlham Əliyevə şəxsi məktubu və Azərbaycanın suverenliyinə birmənalı dəstək - qondarma "DQR"-i tanıtmaq istəyən erməni lobbisinə ismarıc...

**Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə təbrik məktubu ünvanlayıb. Tramp məktubunda 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidentinə və xalqına Amerika xalqı adından səmimi salamlarını və təbriklərini çatdırır.**



Məktubda deyilir: "Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər. Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəsləndiririk. Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır. Biz Minsk Qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik. Xahiş edirəm, 28 May - Respublika Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz".

Göründüyü kimi, Trampın məktubunda Azərbaycanın suvernliyinə birmənalı dəstək ifadə edilir. Eyni zamanda Tramp Azərbaycana Avropanın enerji təminatında oynadığı rola görə təşəkkürünü ifadə edir. Trampın bu mövqeyi həm də qondarma "DQR"-i tanıtmaq istəyən erməni lobbisinə tutarlı cavab sayıla bilərmi?

## *Yeganə Hacıyeva: "Bu, ABŞ administrasiyasının bölgə problemlərinə düzgün yanaşmasının ifadəsidir"*

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ prezidentinin budəfəki məktubunda da həssas məqamlar var: "Yadınızdadırsa, biz sizinlə bundan əvvəlki məktubları da təhlil etmişik və hər zaman diplomatik etiketə aid olmayan ştrixlər barədə fikirlərimizi demişik. Bu məktubda da iki vacib ştrix var. Əvvəla, ABŞ Azərbaycanı Cənubi Qafqazın vacib ölkəsi kimi qəbul edir. Bu xüsusda Azərbaycanın Avropanın enerji təminatında oynadığı rol da yada salınır. Məktubun ana xəttini Azərbaycanın regiondakı inamlı roluna verilən qiymət təşkil edir. Ardınca Ermənistanın "DQR"-lə bağlı uydurduğu miflərə cavab gəlir. Ermənilər son iki il ərzində onları tərəf kimi danışıqlar prosesinə cəlb etmək istəyib. Müxtəlif variasiyalardı "DQR"-i müstəqil bir qurum kimi proseslərə qatmaq istəyirlər. Məktubda onların saxta iddialarına da cavab verilir. Azərbaycanın suverenliyinə ifadə olunan birmənalı dəstək elə ən gözəl cavabdır. Bununla erməni lobbisinin yaratmaq istədiyi psevdoreallıq da darmadağın edilir. Tramp mesaj verir ki, belə oyunlarda onlar yoxdur. Bizim ərazi bütövlüyümüzə verilən qiymət elə Ermənistanı işğalçı kimi tanımaq anlamına gəlir. Son illərin dəyişən reallıqları çərçivəsində bir çox beynəlxaql təşkilatların nüfuzlarını itirməsi ilə rastlaşırıq. ABŞ həm də mesaj verir ki, istənilən yenilənmənin fonunda onlar bizim ərazi bütövlüyümüzü tanıyacaqlar. Geniş mənada yanaşdıqda isə, hazırkı dönəmdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması həm də ABŞ-ın milli maraqlarına cavab verən məqamdır".

Politoloqun sözlərinə görə, ABŞ-ın ən böyük əhəmiyyət verdiyi strateji bölgələrdən biri də Cənubi Qafqaz, Azərbaycan və Gürcüstandır: "Azərbaycanın xüsusi çəkisi bu yöndə daha ağırdır. Azərbaycan Avropa və Asiya qitələrinin birləşdiyi bir nöqtədə yerləşir, Xəzərin karbohidrogen ehtiyatlarının Avropaya nəql edilməsində çox önəmli rol oynayır. Söhbət tək neftdən yox, həm də "mavi yanacaq"dan gedir. ABŞ Azərbaycanın liderliyi ilə həyata keçirilən qlobal enerji layihələrini, o cümlədən Cənub Qaz Dəhlizini qəti surətdə dəstəkləməkdə davam edir, Azərbaycanın və beynəlxalq tərəfdaşların onun tamamlanmasına yönəlmiş səylərini alqışlayır. ABŞ Azərbaycanı Avropa üçün yeni enerji mənbəyi hesab edir. ABŞ qlobal enerji təhlükəsizliyinin gücləndirilməsində, o cümlədən Xəzər regionunda enerji resurslarının işlənilməsi və ixracında Azərbaycanın oynadığı rolu yüksək dəyərləndirir. Bu, ABŞ administrasiyasının bölgə problemlərinə düzgün yanaşmasının ifadəsidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Tramp həm koronavirusla mübarizədə, həm də Qarabağ münaqişəsinin həllində Azərbaycanın yanında...

**Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 28 May - Respublika günü münasibətilə təbrik məktubu ünvanlayıb.**



Məktubda qeyd olunub ki, ABŞ Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir: "Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər. Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəsləndiririk. Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır. Biz Minsk Qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik".

Göründüyü kimi, Tramp həm koronavirusla mübarizədə, həm də Qarabağ münaqişəsinin həllində Azərbaycanın yanında olacağını, sözügedən məsələlərlə bağlı dəstəyini əsirgəməyəcəyini bildirdi. Ümumən bunun əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

## *Elman Nəsirov: "Minsk Qrupunun həmsədri olan bir dövlətin prezidentinin belə fikirlər işlətməsi çox önəmlidir"*

Məsələyə münasibət bildirən millət vəkili, politoloq Elman Nəsirovun sözlərinə görə, Birləşmiş Ştatlar Azərbaycanla ələqələrə xüsusi önəm verir: "Məsələ ondadır ki, sözügedən təbrik məktubunda ölkəmizlə bağlı olduqca önəmli məqamlar öz əksini tapıb. Donald Tramp Azərbaycanla bağlı mövqeyini ifadə edərkən iki böyük dövlət, iki böyük xalq ifadəsini işlədib. ABŞ kimi fövqəldünya miqyasında böyük dövlət deyil, lakin onun sözünün mənası, çəkisi böyükdür. Hesab edirəm ki, Tramp cənab İlham

*"Bu, münaqişənin həllində ABŞ-ın Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi anlamına gəlir"*

dövlətin Azərbaycana münasibətdə analoji terminologiyadan istifadə etməsi onu göstərir ki, rəsmi Vaşinqton ölkəmizin beynəlxalq aləmdə çəkisinə xüsusi önəm verir.

Prezident İlham Əliyev dəfələrlə çıxışında bildirib ki, Azərbaycan Əliyevin məhz bu fikirlərini təsdiq edərək ölkəmizə xüsusi önəm verib. Eyni zamanda, sözügedən məktubda Azərbaycanın beynəlxalq təhlükəsizlikdə oynadığı rola da xüsusi önəm verilib. Bu da çox önəmli məsələdir. Həmçinin, Azərbaycanın pandemiya dövründəki davranışı və atdığı addımlar dəstəklənir. Ən mühüm məsələlərdən biri ABŞ-ın Azərbaycanın suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə verdiyi dəstəkdir. Bu o baxımdan əhəmiyyətlidir ki, ABŞ-ın Minnisota ştatı separatçı qurumun "müstəqilliyinin" tanınması ilə bağlı qərar qəbul edib. Belə bir məqamda Trampın məktubunda yer alan məqamlar çox böyük məna kəsb edir və bunun böyük çəkisi var. Minsk Qrupunun həmsədri olan bir dövlətin prezidentinin belə fikirlər işlətməsi çox önəmlidir. Bu, münaqişənin həllində ABŞ-ın Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi anlamına gəlir".

***Vidadi ORDAHALLI***

# Mayın 2-dən sonra koronavirusa yoluxma sayı artıb, məhkumlar arasında da yoluxanların sayı çoxaldı

**Yumşaldılmış karantin dövründə yoluxma halları müşahidə olunsa da, vəziyyət idarəolunandır. "Trend"in məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib.**

Onun sözlərinə görə, aidiyyəti qurumların yaratdığı maddi-texniki baza imkan verir ki, karantin qaydalarında yumşalma tədbirləri görülsün:"İki ay ərzində karantin dövründə koronavirusa qarşı mübarizə üçün ölkə daxilində məhsulların istehsalına başlamışıq. Bəzi məhsullar üzrə idxalı minumuma endirmişik, bəzi məhsullar üzrə isə idxala ehtiyac olmayıb. Sumqayıtda gündə 200 min maska istehsal gücü olan 1, sonra isə gündə 300 min istehsal gücü olan daha bir zavod açıldı. Artıq birdəfəlik kombinezon istehsalına başlamışıq. Gündə 6 min kombinezon istehsal ediləcək. Modul tipli xəstəxanaların da tikintisinə başlanılıb. Artıq tibbi heyətin təşkilati gücü var. Ona görə də bugünkü gücümüz bizə yumşalma tədbirləri görməyə imkan verir".

### Bakıda polis postlarının azaldılması DİN-dən asılıdır

İ.Məmmədov SMS-lə icazə ləğv ediləndən sonra Bakı və Bakıətrafı ərazilərdə polis postlarının ləğv edilməsi və ya azaldılmasının Daxili İşlər Nazirliyinin (DİN) qərarından asılı olduğunu deyib. Onun sözlərinə görə, karantin rejimi ləğv edilməyib və karantin qaydalarına riayət olunmalıdır:"İnsanlar müəyyən standart və zəruri qaydalara əməl etməlidirlər. O ki, qaldı polis postlarının azaldılmasına, buna əməl etmək Daxili İşlər Nazirliyinin səlahiyyətindədir. Nazirlik hesab edərsə ki, əhalinin hərəkətinə nəzarət edə bilir, onda yollardakı postların azaldılmasına qərar verə bilər, eyni zamanda, postların sayını artıra bilər. Bu, nazirliyin yumşaldılma prosesindən sonrakı qərarından və gəldiyi qənaətdən asılı olacaq".

### Gəncədə epidemiyanın yayılmasının qarşısı müəyyən qədər alınıb

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı isə deyib ki, Gəncə şəhərində aparılan əksepidemik tədbirlər nəticəsində epidemiyanın yayılmasının qarşısını müəyyən qədər almaq mümkün olub. Amma bu tədbirlər davam etdirilməlidir. Onun sözlərinə görə, hər gün aparılan təhlillərə əsasən, karantin tədbirlərinin yumşaldılması və ya sərtləşdirilməsi barədə qərarlar qəbul edilir.

R.Bayramlı qeyd edib ki, ölkədə pandemiya ilə mübarizənin birinci mərhələsi ilk yoluxma faktının aşkarlanması ilə başlayıb: "Hazırda biz pandemiya ilə mübarizənin ikinci mərhələsindəyik. Aprelin 27-dən bəzi yumşaldılma tədbirlərinə başlanılıb. Təəssüflər olsun ki, bəzi ərazilərdə qaydalara məsuliyyətlə yanaşılmır. Artıq Yevlax rayonunda da 64 sakində koronavirus aşkarlanıb. Bu rayonda da ciddi epidemioloji tədbirlərin görülməsinə ehtiyac var. Lənkəran da narıncı zonada qalır".

### Mayın 2-dən sonra yoluxma halları artıb

R.Bayramlı qeyd edib ki, aprelin 27-dən mayın 2-dək olan müddətdə koronavirusa aktiv yoluxma hallarının sayı sabitləşib, mayın 2-dən sonra yoluxma hallarının sayı davamlı olaraq artıb. Onun sözlərinə görə, mayın əvvəlindən yoluxma hallarının sayı yenidən artmağa başlayıb. Bu da məhdudiyyətlərin aradan qaldırılması ilə bağlıdır.

R.Bayramlı qeyd edib ki, hazırda 1 058 aktiv xəstə var. Onların 35-i reanimasiyada müalicə alır: "Ümumilikdə təhlillər göstərir ki, virusa yoluxanların 77,6 faizində simptomlar yüngül müşahidə edilir. Yoluxanların 11-12 faizində vəziyyət orta ağır, 4-5 faizində ağır kimi kimi qiymətləndirilib. Xəstələrin 1,6 faizinin süni tənəffüs cihazlarına ehtiyacı olub".

R.Bayramlı qeyd edib ki, vəziyyəti ağır olan xəstələrdə müşahidə edilən yanaşı xəstəliklər şəkərli diabet, ürəyin işemik xəstəliyi, ağ ciyər xəstəlikləri və s. olub.

### Koronavirusun ikinci dalğasının necə davam edəcəyi sosial məsuliyyətdən asılıdır

"Hazırda koronavirusun ikinci dalğasını yaşamaqdayıq. İkinci dalğanın irəlidə necə davam edəcəyi sosial məsuliyyətdən asılıdır" - deyən R.Bayramlının sözlərinə görə, həftələr üzrə olan göstəricilər bunu deməyə əsas verir ki, qətiyyən rahatlaşmamalıyıq.

Sədr qeyd edib ki, xaricdən idxal edilən yoluxma faizi 7,7-dir. Bakının Yasamal rayonunda yoluxma göstəricisi 17, Nəsimidə 15,8, Sabunçuda 14, Qaradağda 5, digər rayonlarda isə 8 faizdən aşağı olub.

R.Bayramlı əlavə edib ki, virusa yoluxanlar arasında 52-59 yaşlı insanlar üstünlük təşkil edir. Ölkədə 0-9 yaşlılar arasında yoluxma faizi 5 faiz, 80 yaşdan yuxarı 2 faizdir. Qadınlar arasında yoluxma 57 faiz olmaqla daha çoxdur. Kişilər arasında yoluxma göstəricisi 43 faiz təşkil edir.

### Azərbaycanda 1 milyon əhaliyə düşən testlərin sayı 22 mindən çoxdur

R.Bayramlı bildirib ki, Azərbaycanda 1 milyon əhaliyə düşən testlərin sayı 22 mindən çoxdur. Onun sözlərinə görə, əhali arasında koronavirusa yoluxma göstərici nə qədər çox olarsa, onun mutasiya uğraması daha çox ola bilər.




TƏBİB sədri bildirib ki, Azərbaycanda 1 milyon əhaliyə düşən testlərin sayı 22 mindən çoxdur: "Təhlillər onu deməyə əsas verir ki, aparılan testlərin sayı yoluxma hallarının aşkarlanması üçün optimaldır. Lakin vətəndaşların qaydalara əməl etməsi testlərin sayından daha önəmlidir".

R.Bayramlı deyib ki, növbəti gündən başlayaraq, yalnız simptomları olan insanlar, onlarla təmasda olanlar, xaricdən gələnlər test ediləcək. Bu məqsədlə gündəlik olaraq 4 minə qədər testin aparılması nəzərdə tutulur.

### Koronavirusla müalicə işinə 1000-dən çox tibb işçisi cəlb edilib

Koronavirusla müalicə işinə 1000-dən çox tibb işçisinin cəlb edildiyini deyən R.Bayramlının sözlərinə görə, modul tipli xəstəxanalar fəaliyyətə başladıqdan sonra bu işçilərin sayı 3000-ə çatacaq. R.Bayramlı çarpayı fondunun hazırda kifayət qədər olduğunu söyləyib.

### "Bakı Tikiş Evi"ndə 64, "Baku Still Company"də 48 yoluxma faktı...

TƏBİB sədri bildirib ki, koronavirusa lokal yoluxma hallarının əksəriyyəti müəssisələrdə qeydə alınıb. Onun sözlərinə görə, bəzi müəssisələr cağırışlara məhəl qoymayıblar, ona görə də kütləvi yoluxma halları aşkarlanıb. Təkcə "Bakı Tikiş Evi"ndə 64 nəfər yoluxub. Onlar hazırda müalicə edilir. "Baku Still Company"də 48 yeni yoluxma faktı aşkarlanıb.

### Daha 13 məhkum koronavirusa yoluxdu

R.Bayramlı Azərbaycanda cəzaçəkmə müəssisələrində koronavirusa yoluxma hallarının davam etdiyini də deyib. Onun sözlərinə görə, daha 13 nəfər məhkum bu virusa yoluxub:"Cəzaçəkmə müəssisələrində 33 məhkumda koronavirus aşkar edilmişdi. Hazırda koronavirusa yoluxan məhkumların sayı 46 nəfərə çatıb. TƏBİB və Penitensiar Xidmətin tibbi briqadalarının birgə səyi ilə həmin xəstələrin müalicəsi davam etdirilir".

R.Bayramlı bildirib ki, koronavirusla bağlı məhdudiyyətlərin tətbiqi ilə bağlı yenidən qərarlar verilə bilər. Bayram günləri üçün belə məhdudiyyətlərin verilməsini mümkün sayan R.Bayramlının sözlərinə görə, 10-14 gün ərzində olan göstəricilər əsasında növbəti mərhələlərlə bağlı qərarlar veriləcək:"SMS-lə icazə almaq ləğv edilib. Amma bu o demək deyil ki, biz əvvəlki həyatımıza dönməliyik".

"10-14 gün sonra ortaya çıxacaq göstəricilərə əsasən növbəti mərhələlərlə bağlı qərar veriləcək".

TƏBİB sədri bildirib ki, SMS-lə evdən çıxmaq ləğv edilsə də, insanlar küçələrə, bulvara və parklara axın etməməlidir. Həmçinin restoran və çay evlərində müvafiq tibbi-metodik göstərişlərə əməl olunmalıdır. O qeyd edib ki, bu qaydalara əməl etməyənlər ciddi şəkildə inzibati və cinayət məsuliyyətinə cəlb olunacaq.

### Xaricdən gələnlər arasında 20 faiz yoluxma...

"Ümumilikdə son dövrlər ərzində çarter reysi ilə Azərbaycana gələnlərin analizləri onu göstərir ki, xaricdən gələnlər arasında yoluxma 20 faiz təşkil edir" - deyən TƏBİB sədrinin sözlərinə görə, vətəndaşların xaricdən Azərbaycana gətirilməsi davam edəcək: "Amma onların karantin müəssisələrinə yerləşdirilməsi də davam etdiriləcək. Təhlillər göstərir ki, bu virus uzun müddət bizimlə yaşayacaq, amma biz uzun müddət karantin şəraitində yaşaya bilmərik. Xəstəlik sürətlə yayılır. Xəstəliyi həddindən artıq ağır keçirənlər var. Bu xəstəlikdən qorunmağın yolu asandır və kontrollu sosial həyatdır. Bundan sonrakı devizimiz kontrollu sosial həyat olmalıdır. Bu da tibbi maskalardan istifadə və sosial məsafənin gözlənilməsidir. Bu qaydaların hər ikisinə birlikdə əməl edilməlidir. Nəzərə alaq ki, hər bir yoluxma tibb işçiləri üçün bir yükdür".

### Karantin rejimi ilin sonunadək davam edəcək

"Karantin rejimi ən azı bu ilin sonuna qədər davam edəcək. Ola bilsin, biz tədricən bundan çıxacağıq, ancaq müəyyən qaydalar tətbiq olunmaqda davam edəcək" - deyən R.Bayramlının sözlərinə görə, karantin rejiminin daha tez yumşaldılmasını istəyiriksə, qaydalara əməl etməliyik: "Beynəlxalq təcrübəyə baxsaq görərik ki, ölkələr sərt karantin rejimindən daha çox vətəndaşları bu virusla birgə yaşamağa öyrəşdirirlər. Görülən tədbirlərə baxmayaraq, bu virus bizim aramızda qalmaqda davam edəcək. Ola bilsin, biz tədricən bundan çıxacağıq, ancaq bütün bunlar vətəndaşların sosial məsuliyyətindən asılı olacaq".

### Bakı-Naxçıvan reysinin açılması məsələsi…

TƏBİB sədri bildirib ki, Bakı-Naxçıvan reysinin bərpası ilə bağlı qadağalar qalmaqdadır. Lakin növbəti mərhələdə bu reysin açılması məsələsinə baxıla bilər. Onun sözlərinə görə, sarı zonadan narıncı zonaya gediş-gəliş qadağan edilib:"Naxçıvan və digər bölgələr sarı zona olduğundan, Bakıya gediş-gəliş qadağan edilib. Bakıda iş yeri olan şəxslər buraya gələ bilirlər. Amma Naxçıvanla əlaqə yalnız hava yolu ilə mümkündür. Hələlik aviareyslər bağlı olduğundan bu mümkün deyil. Bu məsələ gündəmdədir. Ola bilsin ki, növbəti mərhələdə bununla bağlı qərar verilsin".

## Azərbaycanda koronavirusa 101 yeni yoluxma... 53 nəfər sağaldı, 1 nəfər vəfat etdi

**Azərbaycanda 101 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 53 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan bakixeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, xronik böyrək çatışmazlığı, xronik pielonefrit və arterial hipertoniya xəstəliyi olan 1977-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 2980 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1886 nəfər müalicə olunaraq sağalıb, 36 nəfər vəfat edib, 1058 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 37 nəfərin vəziyyəti ağır, 47 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 220.363 test aparılıb.

**Məlum olduğu kimi, yeni Baş prokuror Kamran Əliyevi videokonfrans formatında qəbul edən Prezident İlham Əliyev Prokurorluq orqanlarında islahatların aparılmasına dair öz tövsiyələrini verib. Görünən budur ki, Prezidentin tövsiyələrinə uyğun olaraq prokurorluqda islahatlara start verilib, bir neçə rayonun prokuroru işdən çıxarılıb.**

# Kamran Əliyev prokurorluq sistemində çoxillik problemin həllinə başladı - qanunçuluğa dövlət nəzarəti yaşlılardan alınır...

## *Şəmsəddin Əliyev: "Yaşı keçmiş prokurorların gənclərlə əvəzlənməsi təqdirəlayiqdir"*



Bununla bağlı Bas? prokuror Kamran Əliyev müvafiq əmr imzalayıb. Əmrə əsasən, Xətai rayon prokuroru Yusif I?Idırımzadə, Sabunc?u rayon prokuroru Ceyhun S?irinov, Nəsimi rayon prokuroru Salman Məmmədli, Qəbələ rayon prokuroru Məqsəd Orucov, Yevlax rayon prokuroru Elxan Pənahov tutduqları vəzifədən azad ediliblər.

K.Əliyevin digər əmri ilə Bas? Prokurorlug?un Maddi-texniki təminat şöbəsinin rəisi Niyaz Məmis?ov da işdən çıxarılıb.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib ki, həmin şəxslər "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq prokurorluqda qulluqda olmanın yaş həddinə çatdıqlarına görə Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə tutduqları vəzifədən azad olunmaqla prokurorluq orqanlarında qulluq keçmələrinə xitam verilib.

E.Sultanov həmçinin bildirib ki, Baş prokuror K.Əliyevin imzaladığı digər əmrlə Ağstafa rayon prokuroru Aslan Surxayev tutduğu vəzifədən azad olunub.

Bütün bu addımlar Kamran Əliyevin Prokurorluq sistemində çoxillik problemin həllinə başladığının və gənclərə üstünlük veriləcəyinin subutu sayıla bilərmi?

Hüquqşunas Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Kampan Əliyevin iş prinsipinə yaxından bələddir:"Mən onu peşəkar hüquqşunas kimi tanıyıram. Son illərdə onun Korrupsiyaya Qarşı Mübarizə İdarəsində gördüyü işlər də müsbət qiymətləndirilir. Orda olanda da korrupsiyaya qarşı sərt, həm də ədalətli mübarizə aparırdı. Kamran müəllim son illərdə yalnız ölkənin hüdudlarında deyil, ondan kənarda da yaxşı hüquqşunas kimi tanınır. Onun Baş prokuror təyinatını da çox düzgün seçim sayıram. Ölkə başçısı bu seçimində həm də ona böyük etimad göstərmiş olub. Videokonfrans formatında qəbul zamanı da ölkə başçısı onun qarşısına bir sıra vəzifələr qoydu və qurumda islahatların aparılmasının zəruriliyindən danışdı. Düşünürəm ki, artıq bu prosesə start verilib. Kadr yenilənmələri labüddür. Xüsusilə də narazılıq yaradan bəzi kök atmış şəxslərin gənclərlə əvəzlənməsi lazımdır. Kamran müəllim Prokurorluğun öz daxilindən bu vəzifəyə təyinat alıb. Məcazi mənada ifadə etsək, kimin necə nəfəs aldığını da bilir. Onun kadrların yenilənməsi ilə bağlı atdığı ilk addımı dəstəkləyirəm. Düşünürəm ki, burda yeniliklər davam edəcək. Zərrə qədər şübhəm yoxdur ki, ölkə başçısının ona göstərdiyi etimadı doğruldacaq. Son zamanlar DTX ilə birgə aparılan fəaliyyətin nəticələrini görürük. Bu orqanlar koordinasiyalı qaydada cinayətkarlıqla mübarizədə ciddi uğurlara imza atacaqlar. Yaşı keçmiş prokurorların gənclərlə əvəzlənməsi təqdirəlayiqdir. Burada gənclərin enerjisi ilə yaşlıların təcrübəsinin sintezinin tətbiq ediləcəyini də gözləyirəm. Bu spesifik və məsuliyyətli sahə olduğu üçün bir-birinə bağlı olan komponentləri nəzərə almalıyıq. Qısa müddətdə biz prokurorluqda aparılan islahatların nəticəsini görəcəyik".

***Məhəmmədəli QƏRİBLİ***

**Milli Şuranın üzvü Eldəniz Quliyev qurumdan istefa verdiyini açıqlayıb. O bu barədə özünün "Facebook" səhifəsində yazıb. E.Quliyev qeyd edib:"Təəssüf hissi ilə qeyd edirəm ki, bu andan etibarən Milli Şurayla yollarımız ayrılır və bu səbəbdən MŞ-dən istefa verirəm".**

# Milli Şuranın açıq söyüşlərlə dolu videoiclası istefalara səbəb oldu - Eldəniz Quliyev...



Qeyd edək ki, bir müddət əvvəl Eldəniz Quliyev cinsi azlıqlara qarşı təhqiredici və alçaldıcı ifadələr işlətmişdi. Milli Şuranın onlayn konfransında qurumun digər üzvləri Gültəkin Hacıbəyli və Rafiq Manaflı da onu dəstəkləyən çıxış ediblər və cinsi azlıqlara dözümsüz münasibət göstərilməsi ilə bağlı çağırışlar səsləndiriblər. Həmin konfransda açıq söyüşlərin səslənməsi isə cəmiyyətdə birmənalı qarşılanmayıb. Baş verənlərə görə üzr istəmək yerinə, Milli Şuranın sədri Cəmil Həsənli böyük bir yazı ilə çıxış edərək, həmin videokonfransın necə ictimailəşdiyindən narahatlığını ifadə edib. Bu xüsusda yazıb ki, güya həmin videokonfrans xüsusi xidmət orqanları tərəfindən dinlənilib və məqsədli şəkildə ictimailəşdirilib. Haqlı sual oluna bilər: bəs orda səslənən söyüşlər necə, montaj deyil ki? Təbii ki, yox. Həmin konfransda eyni zamanda Müsavat və REAL-ın da ünvanına təhqirlər, aşağılayıcı ifadələr işlədilib.

Eldəniz Quliyev istefasının səbəbini qısa olaraq belə açıqlayıb:"Ola bilsin ki, mətbuat konfransı keçirim. Amma onu deyə bilərəm ki, istefamdan itirən mən yox, Milli Şura oldu. Mən öz yerimdə, öz əqidəmdə və düşüncəmdəyəm".

Milli Şuranın gələcək perspektivi ilə bağlı məsələyə toxunan E.Quliyev bildirib ki, bu artıq Milli Şuranın tamamilə iflasına aparan yolun başlanğıcıdır:"Daha belə də olmaz. Milli-mənəvi dəyərlər var. Bu hərəkətlərdən və mənim istefamdan itirən Milli Şura olacaq".

Qeyd edək ki, Eldəniz Quliyev Facebookda məhz bu statusuna görə təqiblərə məruz qalıb və videokonfransada linç edilib:"İsmayıl Cəlilov AXCP və Milli Şura haqda ağlına, ağzına gələni deyə bilər... İstəsə lap bədəninin başından dəfələrlə böyük olan digər girdə hissəsiylə, yəni kürəyindən aşağı endikcə adını, formasını və daşıdığı funksiyasını dəyişdiyi yeriylə fəxr də edə bilər, hətta həmin o əzası ilə ləçərlik edər, özünə karyera qura bilər və.s və i.a. Öz işi, öz seçimi, öz həyatıdı - özü, bir də onu müdafiə edən üzdəniraqlar bilər. Qarışmıram...

Mənim, üzr istəyirəm, İsmayıl xanıma hər hansı bir sözüm-cavabım olsa, birbaşa onun ərinə deyərəm; çünki belə eksentrik məsələlər barədə adətən evin kişisi ilə danışarlar!"

Müsavat Partiyasının sədr müavini Fərəc Kərimli Milli Şuranın iclasında səslənən fikirlərə öz səhifəsində belə münasibət bildirib:"Milli Şuranın məlum iclasının davamında daha iyrənc fikirlər səsləndirilib. Videosunu şərhdə paylaşacam. Müsavat Partiyası Milli Şuranın sədri tərəfindən, Koordinasiya Mərkəzinin üzəri tərəfindən təhqir edilib. Cəmil Həsənli və digərləri Müsavat Partiyasından, cəmiyyətdən dərhal üzr istəməlidir. Bu biabırçılıqdan fikir yayındırmaq üçün hələ bir status da yazıb ki, guya iclas qapalı olub və hakerlər tərəfindən yazılıb. Halbuki, iclasda xəbərdarlıq edilir ki, iclas canlı efirə gedir".

REAL-ın icra katibi Natiq Cəfərli də Milli Şuranın üzvü Gültəkin Hacıbəylinin və rəhbəri Cəmil Həsənlinin ötən gün təmsil etdiyi partiya ilə bağlı videoda səsləndirdikləri çıxışlara münasibət bildirib. O, Facebook profilində yazıb:"Milli Şura ilə bağlı hələ 2013-cü ildə şəxsən mənə hər şey aydın olub. Həmin zaman 7 dəfə danışıq apardıqdan sonra o mənasız, ipi yüz əldə olan quruma qoşulmaqdan imtina etdik. Hətta həbsdə olan sədrin təkidinə baxmayaraq, imtina etdik. Çünki dəyərləri, prinsipləri, aydın planı-proqramı olmayan, şəxs-şəxslər ətrafında bütpərəst təfəkkürlə qurulan təşkilata qoşulmaq axmaqlıq olardı. Sonradan da, indi də nə qədər haqlı olduğumuz öz təsdiqini tapdı. Bir çox dostlar MŞ-nın buraxılmasını tələb edir, olmayan qurum necə buraxılacaq ki?! MŞ yoxdur, AXCP var, o partiya özünə oyuncaq yan qurum kimi MŞ-nı saxlayırdı ki, məsələn, xaricilərlə görüşəndə iki təmsilçi ilə getsinlər və ya daxildə hər hansı bir siyasi birlik ideyası olsa, ora hər iki qurumdan təmsilçi salaraq səsvermədə üstünlük qazansınlar, vəssalam. Bu qədər primitiv və köhnədirlər.

Bunların nə demokratiya dərdi var, nə də haqq-hüquq gündəliyi, çünki o dəyərlər haqqında təsəvvürləri belə yoxdur. Videoları da, çox güman, öz içlərində olanlar sızdırıb - zatən içlərində hökumətə işləməyən çətin tapıla. Hər birinin illərdir bu hökumətlə əlaqələri olub-var, onlara çəkilən xətdən, biçilən roldan heç vaxt kənara çıxmayıblar. Onların siyasət anlayışı o qədər primitiv, keçmişləri o qədər qaranlıqdır ki, istənilən başqa cür düşünən-davranan siyasi təşkilatı həmən düşmən görüb sıradan çıxartmağa çalışırlar".

Görünən budur ki, yarandığı gündən yalnız AXCP-nin yedəyində gedən Milli Şura adlı qurum tam bitdiyini sübut etdi. Onu son məzara isə öz üzvləri yola salır. Eldəniz Quliyevin istefasının qurumun tam çökməsində bir katalizator rolunu oynayacağına şübhə qalmır.

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın sədrliyi Türk Şurasını mühüm beynəlxalq quruma çevirir

**Azərbaycanın təşəbbüsü fonunda son dövrlərdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) bu qurum olaraq fəaliyyətinin daha aktiv hala gəlməsi müşahidə edilməkdədir. Artıq bu fonda o da özünü qabarıq şəkildə büruzə verir ki, dünyanı cənginə almış koronavirus pandemiyasının yayıldığı dövrdə Türk Şurası özünü indi uğurlu bir regional təşkilat kimi göstərməkdədir.**

Hesab edilir ki, bu format indi qlobal çağırışlara cavab vermək iqtidarında olduğu qənaətini doğruldur.

Digər tərəfdən artıq belə çağırışlar da səslənir ki, Türk Şurasının daha güclü təşkilata çevrilməsi üçün qurum inteqrasiyanı daha da dərinləşdirməlidir. Bu xüsusda isə Azərbaycanın təşəbbüsünün artıq inteqrasiyanın dərinləşməsi üçün mühüm özül yaratması da xüsusi vurğulanır. Burada xatırlatmaq yerinə düşərdi ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ötən ay videokonfrans vasitəsilə Türk Şurasının fövqəladə zirvə görüşü keçirilib. Burada fəaliyyətdə olan sədr kimi yenə Prezident İlham Əliyevin təlimatları və təşəbbüsü ilə üzv ölkələrin müvafiq strukturları arasında da əməkdaşlığın konkret istiqamətləri üzrə mühüm prosesə start verilib. Bu fonda da bir-birinin ardınca Türk Şurasının müxtəlif istiqamətli toplantıları baş tutub. Bunlar aprelin 28-də keçirilmiş Türk Şurasının səhiyyə nazirlərinin toplantısı, aprelin 30-da keçirilmiş nəqliyyat sahəsi üzrə nazirlərin toplantısı, daha sonra mayın 6-da keçirilmiş üzv ölkələrin iqtisadiyyat nazirləri və gömrük idarələri rəhbərlərinin toplantısı və mayın 7-də baş tutmuş miqrasiya sahəsindəki dövlət qurumu rəhbərlərinin toplantısı olub. Burada pandemiyaya qarşı birgə mübarizə, qlobal bəladan birgə çıxış yollarının axtarılıb tapılması, eyni zamanda ortaq mübarizə proqramlarının ortaya qoyulması, həmçinin, iqtisadi tənəzzüldən və bir çox sahələrdəki çətinliklərdən çıxmaqla bağlı birgə konkret tədbirlər planının hazırlanması ön planda yer alıb. Artıq bu istiqamətdə ortaq sənədlər də qəbul edilib.

Hazırda qurum üçün əsas məsələlərdən biri iqtisadi əməkdaşlığın dərinləşməsidir. Artıq idxal vergi dərəcələrinin aşağı salınması, bir sıra məhsulların sürətli keçidinin təmin edilməsi məqsədilə türkdilli dövlətlərin üzv və müşahidəçi ölkələri arasında yeni bir Yaşıl Dəhliz sisteminin tətbiq edilməsi də bunun təsdiqidir. Bununla yanaşı, yuxarıda qeyd ounlduğu kimi, aprelin 30-da Türk Şurasına üzv dövlətlərin nəqliyyat sahəsi üzrə nazirlərinin toplantısı keçirilib və bu istiqamətdə Nəqliyyat Koordinasiya Mərkəzinin gücləndirilməsi məqsədilə İqtisadiyyat, Ticarət və Gömrük idarələri sahəsində məsul olan nazirlərin də bu koordinasiya qrupuna əlavə olunması qərara alınıb ki, işin sürəti artsın, həmçinin xidmət keyfiyyəti yüksəldilsin. Mal və xidmət dövriyyəsinin dayanıqlılığını daha güclü şəkildə təmin etmək məqsədilə Nəqliyyat Koordinasiya Mərkəzinin yaradılması və gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, tərəflər sənaye bölgələrinin, texnoparkların və ticarət yerlərinin qurulması, bu sahədə mövcud strukturların inkişafı və onların birgə istifadəsi ilə bağlı birgə razılıq əldə edib. Eləcə də Ortaq Türk Sərmayə Fondunun yaradılması ilə bağlı işlər aparılmaqdadır. Burada milli valyutalardan istifadə olunması və bununla bağlı ortaq strategiyanın tətbiqi də qərarlar içərisində xüsusi yer tutur. Bu məsələ iqtisadi dayanıqlılığın artırılması, tənəzzülün qarşısının alınması və pandemiyadan sonrakı dövrdə iqtisadi inkişafa mühüm töhfə verə biləcək əsas amillərdən sayılır. Eyni zamanda, Bakı-Tiflis-Qars dəmir yolunun imkanlarından maksimum şəkildə istifadənin təşviq olunması, ortaq dəhlizlə yükdaşımalar istiqamətində dəstəyin verilməsi də qarşıdakı dövrdə Türk Şurasının əsas məqsədləri sırasında yer alır. Bütün bunlarla bağlı Türkiyənin "haberturk" portalı yazır ki, Türk Şurası dövlətləri arasında enerji sektorunda da əməkdaşlığın dərinləşməsinə ehtiyac var:"Digər tərəfdən, başda iqtisadi vasitələr olmaqla, səhiyyə, təhsil, mədəniyyət, media, informasiya kimi fərqli anlayışların xarici siyasət cığırında istifadə qaydaları böyük əhəmiyyət kəsb edir. Çünki qlobal hadisələr və rəqəmsallığa keçid bu anlayışlarla paralel olaraq inkişaf edir. Burada önəmli olan məsələ adıçəkilən anlayışlar arasındakı əlaqəni daha da gücləndirə bilməkdir. Burada mühüm məqamlardan biri də Bakı-Tiflis-Xəzər xəttindən türkmən qazının da Türkiyəyə gələ bilmə ehtimalının yenidən tumurcuqlanmasıdır". Qeyd edək ki, söhbət burada məşhur "Transxəzər" kəmərindən gedir. Portal yazır ki, bu kəmərin çəkilişi türkdilli ölkələr üçün müstəsna əhəmiyyət kəsb edir:"Türk dünyası əməkdaşlığının, xüsusilə iqtisadi baxımdan üzv ölkələrin xeyrinə dəqiq addımlara çevrilməsi, sadəcə Türkiyə yox, Orta Asiya və Avrasiya bölgəsini də təsiri altına alacaq məzmuna sahibdir. Artıq vaxt itirməyin heç bir mənası yoxdur. Gələcəyi yaxşılaşdırmaq üçün iqtisadi layihələrin hazırlanmasına başlanmalıdır. Bunun təməli isə 2010-cu ildə əsası qoyulan Türk Şurasının üzv ölkələridir: Türkiyə, Azərbaycan, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Macarıstan və rəsmi üzv sayılmasa da, Türkmənistan… Türkmənistan və KKTC də (Şimali Kipr Türk Cümhuriyyəti) mütləq burda yer tutmalıdır. Şuranın baş katibi Bağdad Amrayev artıq hər həftə bir neçə rəqəmsal zirvə toplantısının olduğunu bildirir. Amrayev qısa müddət ərzində önəmli qərarların alındığını da qeyd edir. Bu qərarlar dünyadakı bənzəri ittifaqlar içərisində Türk Şurasını daha da ön cərgələrə aparacaq. İlkin mərhələ üçün aşağıdakı məsələlər ələ alınıb:

Üzv ölkələr arasındakı ticarətdə milli valyutadan istifadə edilməsinə təşviqatın başlanması (Əslində, bunun bir bənzəri də 2018-ci ildə "Böyük səkkizlik" ölkələri arasında başlamışdı. Hətta bu zaman malayziyalı bir firma bununla bağlı ortaq ödəniş sistemi də yaratdı. Türk Şurasının səlahiyyətli nümayəndələri buna bənzər növbəti bir proqram sisteminin özləri tərəfindən qurula biləcəyini açıqladılar). Türk İnvestisiya Fondunun fəaliyyətə başlaması; - Ölkələr arasında yeni dövrdə rəqəmsal iqtisadiyyat və onlayn ticarət sahəsində işbirliyinin sürətləndirilməsi; Bu məsələdə ortaq bir sistemin yaradılması;



Gömrükdən keçid qaydalarının sürətləndirilməsi və idxal vergilərinin aşağı salınması istiqamətində mexanizmin inkişaf etdirilməsi; Ölkələrin Mərkəzi bankları arasında mübadilə razılaşmalarının qurulması; Bunlarla yanaşı, bir də tədarük zəncirinin qurulması;

Tibbi ləvazimat çatışmazlığının üzv ölkələr arasında aradan qaldırılması məsələsi də bu prosesə daxil edilib. Bunların hamısı çox önəmli başlıqlardır. Bu məqsədə uyğun olaraq, üzv ölkələr arasında iqtisadiyyatı sürətləndirmək üçün 4 nazirliyin nazir müavinlərindən ibarət bir komitə yaradılacaq.

Ancaq Amrayev açıqlamasında bu məsələdə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun dəhliz rolu oynaması da diqqət çəkir. İranda yaranan məlum problemlər səbəbindən Türkmənistan-İran sərhədi bağlanıb. Bu hadisə isə adını çəkdiyimiz dəhlizi daha önəmli hala gətirib. Bunun mərkəzində də türk dünyası dayanır. Xəzərdən keçən mal və bənzəri xidmət transferlərinin canlandırılması, Ro-Ro tranzit haqlarının azaldılması, sərhəd-keçid məntəqələrində və gömrüklərdə yük və digər xidmətlərin keçidlərinin asanlaşdırılması, ticarət dəhlizlərinin yaradılması… Üzv ölkələrin milli qazancı 1,3 trilyon dollara çatır və xarici ticarəti dünya ticarətinin 1.4%-nə uyğun gəlir. Elə isə, heç gözləmədən bütün qurumlara çağırış etmək lazımdır - bu dəhlizin belə böhranlarda yox, hər zaman canlı qalması önümüzdəki dövr üçün həyati əhəmiyyət kəsb edir".

***Nahid SALAYEV***

# Vatikan səfiri Paşinyanın siqaret qaçaqmalçılığını ifşa etdi - "Təyyarə Krasnodarda tutuldu"...

"Çox keçmədən hakimiyyətini itirəcəyini anlayan Nikol Paşinyan qanunsuz olaraq maliyyə qaynaqları toplamağa çalışır". Bu sözləri Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan "Facebook"dakı növbəti videomüraciətində deyib.



## Arzuxan Əlizadə: "Məlum qalmaqal Paşinyanın sosial dayaqlarının daha da zəifləməsinə öz təsirini göstərəcək"

Qeyd edək ki, bu yaxınlarda keçmiş səfir Nikol Paşinyanın cinayətkarlığı barədə təkzibedilməz dəlillərə sahib olduğunu və onları xüsusi xidmət orqanlarına təqdim etməyə hazır olduğunu demişdi. Tezliklə Minasyanın özünə qarşı məhkəmə işi açıldı və onun tutulmasına cəhdlər edildi.

Yeni bir mesajda Minasyan indi Paşinyan gücünü itirdikdən sonra həyatının yüksək keyfiyyətini qoruyub saxlamağa imkan verən bir potensial yaratmağa çalışdığını və bunun üçün Ermənistanın nüfuzuna təsir göstərən beynəlxalq mafiya sisteminə qarışdığını söylədi.

Diplomatın sözlərinə görə, Paşinyan siqaret qaçaqmalçılığı ilə məşğul olur: "Bu qanunsuz siqaretlə dolu bir təyyarədir. Ermənistan hakimiyyəti bu xəbəri ört-basdır etmək üçün hər şeyi etdi. Hekayə də budur. Sənədlərə görə, təyyarə Ermənistanın Zvartnots hava limanından Əfqanıstana yola düşüb. Əfqanıstandan ən məntiqsiz bir məsafədə, Rusiyanın Krasnodar hava limanına gəldi və sonra Rusiya hüquq-mühafizə orqanları tərəfindən tutuldu və məsuliyyətə cəlb edildi".

Onun sözlərinə görə, əməliyyat məlumatları göstərir ki, Nikol Paşinyan bu işdə birbaşa iştirak edir, çünki yaxın qohumu Sipan Paşinyan Ermənistanda bu işin təşkilatçısıdır. Siqaret alır və ixrac barədə qərar qəbul edir, çünki Rusiyada satmaq imkanı var. İstintaq, həmçinin, bu əməliyyat üçün "xeyir-dua"nın Ermənistanın Baş nazirinin həyat yoldaşı Anna Akopyanın verdiyi barədə birbaşa sübutlara malikdir: "Ermənistan Respublikası və Rusiya Federasiyasının xüsusi xidmət orqanlarında bu faktlar var. Qırğınlar başlayır".

Onu da qeyd edək ki, bir həftədir Ermənistan hakimiyyəti müxtəlif kanallar vasitəsilə məlumatı təkzib etmək və onun sonrakı yayılmasının qarşısını almaq üçün cəhdlər edir. Bütün bunlar Paşinyanın həqiqətən də qanunsuz biznes fəaliyyəti ilə məşğul olduğunu sübut edir.

### "Rusiya istənilən vaxt bu faktlardan ona qarşı istifadə edə bilər"

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in sədr əvəzi Arzuxan Əlizadənin sözlərinə görə, erməni diplomatın Paşinyanla bağlı səsləndirdiyi faktlar biabırçı bir mənzərəni ortaya çıxarır: "Diletant kimi demokratiyadan, şəffaflıqdan, korrupsiyaya qarşı mübarizədən danışan Baş nazir gör hansı fəaliyyətlə məşğuldur. Nəzərə almaq lazımdır ki, bunu sıradan bir erməni vətəndaşı yox, kifayət qədər məlumata malik olan bir diplomat deyir. Bunu müxalifət təmsilçisi desəydi, o dəqiqə bunda siyasi motiv axtarardılar.

Səfir qeyd edir ki, bu barədə Rusiyanın hüquq-mühafizə orqanları araşdırma aparır. Şübhə etmirəm ki, Rusiya istənilən vaxt bu faktlardan Paşinyana qarşı istifadə edə bilər. Mənə elə gəlir ki, məlum qalmaqal Paşinyanın sosial dayaqlarının daha da zəifləməsinə öz təsirini göstərəcək. Görünür, bu faktlar doğrudur ki, Paşinyan bütün vasitələrlə sözügedən məlumatların yayılmasına mane olmağa çalışır".

**Vidadi ORDAHALLI**

# Ermənistanı Avropa ilə yumşaq viza rejiminə buraxmaq olarmı - faşistə heykəl qoyulursa, erməni mafiyası siyasi hakimiyyətə müdaxilə edirsə...

Avropa İttifaqının Ermənistandakı səfiri Andrea Viktorin mətbuat konfransı keçirib. Mətbuat konfransında səfirə "Aİ nəyə görə "Artsax"da nümayəndəlik açmır" sualı verilib. Aİ səfiri ermənilləri peşman edən cavab verib. Bildirib ki, qurum tanınmayan ərazilərdə nümayəndəlik aça bilməz:



## Məhərrəm Zülfüqarlı: "Ermənistanla viza rejimi yumşaldılsa, bu, Avroittifaq ölkələri üçün ciddi problemlər yaradacaq"

"DQR" tanınmamış bir birlikdir, beynəlxalq hüququn subyekti deyil. Aİ və Aİ ölkələri Dağlıq Qarabağı bir respublika olaraq tanımadılar. Buna görə də Aİ orada bir nümayəndəlik qura bilməz".

Səfir Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin prioritet olaraq qaldığını, Aİ-nin ATƏT-in Minsk Qrupu həmsədrlərinin səylərini dəstəkləməkdə davam etdiyini və sülhün bərqərar olması üçün yüksək səviyyədə danışıqların intensivləşməsini tələb etdiyini bildirib.

Bununla belə, Ermənistanla Aİ arasında vizaların liberallaşdırılması ilə bağlı dialoqdan danışan səfir qeyd edib ki, tərəflər arasında imzalanan sazişdə vizanın liberallaşdırılması perspektivi var: "Vizanın liberallaşdırılması ilə bağlı dialoqa başlamaq üçün Aİ-nin 27 üzvü qərar qəbul etməlidir. Ancaq mən də hesab edirəm ki, üzv dövlətlər Ermənistan vətəndaşlarının viza rejiminin liberallaşdırılmasının nə olduğunu tam dərk etdikləri üçün lazımi zəmanətə ehtiyac duyurlar. Çünki bu, Avropada uzun müddət qalmaq və ya orada peşəkar fəaliyyətlə məşğul olmaq demək deyil. Bu o deməkdir ki, Şengen bölgəsində olma 6 ay ərzində 90 gündən çox olmamalıdır".

Separatçı qurumda Aİ-nin nümayəndəlik açmaqla bağlı ermənilərin arzuları növbəti dəfə suya düşdü və bununla bağlı gərəkən cavabı aldılar. Ancaq Ermənistanla Aİ arasında viza rejiminin yumşaldılması məsələsinin gündəmə gətirilməsi anlaşılan deyil. Ona görə ki, Ermənistan kimi ölkəyə bu cür güzəştlərin edilməsi doğru deyil. Bunu şərtləndirən bir sıra faktorlar var. Məsələ ondadır ki, Ermənistan faşist cəlladlarının adını əbədiləşdirən, onlara heykəl qoyan ölkədir. Ölkə rəhbərliyi rəsmən bu siyasəti dəstəkləyir. Digər tərəfdən, ermənilər millət olaraq kriminal fəaliyyətə meylli olan xalqdırlar. Ötən il Almaniya və digər Avropa ölkələrində ermənilərin mafiyaları ifşa edildi, həbslər həyata keçirildi. Məlum oldu ki, ermənilər insan alverindən tutmuş, bir sıra digər qanunsuz fəaliyyətlərlə məşğuldurlar. Avropadakı siyasi hakimiyyətlərə təsir göstərirlər. Belə olan halda, Ermənistanla Aİ arasında viza rejiminin yumşaldılması istəyi nə dərəcədə doğrudur?

### "Bu ölkədə dövlət səviyyəsində terrorizm dəstəklənir"

Məsələyə münasibət bildirən tarix üzrə elmlər doktoru Məhərrəm Zülfüqarlının fikrincə, Avroittifaq Ermənistanla viza rejiminin yumşaldılmasının necə təhlükəli perspektiv vəd etdiyinin fərqində deyil: "Erməni lobbisinin Avropada təsir imkanları böyükdür. Üstəlik, Avropa ölkələrində çoxsaylı erməni yaşayır. Aİ-nin aparıcı ölkələrində isə erməni icmaları kifayət qədər mükəmməl təşkilatlanıblar. Ancaq Aİ ermənilərin əsl simasını, xislətini bilmir. Onlar fərqində deyillər ki, bu millət necə təhlükəlidir. Bununla yanaşı, Ermənistanda dövlət səviyyəsində terrorizm dəstəklənir. Ermənistanda faşist cəlladlarının adı əbədiləşdirilir. Hansı ki, faşizm Avropanı böyük fəlakətə sürükləyib. Nəticədə on milyonlarla insan məhv edilib. Digər tərəfdən, Ermənistanda dövlət səviyyəsində kriminal ünsürlərlə əlaqələr var və bununla bağlı kifayət qədər fakt da mövcuddur. Ötən il Almaniya polisinin erməni mafiyası ilə bağlı keçirdiyi əməliyyatlarda bunlar sübut olundu. O baxımdan hesab edirəm ki, Ermənistanla viza rejimi yumşaldılsa, bu, Avroittifaq ölkələri üçün ciddi problemlər yaradacaq".

**Vidadi ORDAHALLI**

# Ordumuzun 18-22 may təlimlərinin Ermənistanı narahat edən məzmunu - təmas xəttində və hücum xarakterli...

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, mayın 18-dən 22-dək Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin açıqlamasına görə, təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq.

Keçirilən təlimlər zamanı döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qismlərinin idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanacaq.

Təlimin niyyətinə əsasən, düşmənin əməliyyat düzülüşünün bütün dərinliyindəki müəyyən istiqamətlərdə qoşunların tətbiqi, kütləvi raket və artilleriya, aviasiya bombahəmlə zərbələrinin endirilməsi, həmçinin silahlanmada olan yüksək dəqiqliyə malik vasitələrin istifadəsi nəzərdə tutulur. Müxtəlif təlim mərkəzləri və poliqonlarda qoşunların praktiki fəaliyyətləri yoxlanacaq. Qeyd edək ki, Azərbaycanın nəzərdə tutulan təlimlərindən Ermənistn bərk təşvişə düşüb. Onlar hətta indiki situasiyanı 2016-ci ildə baş verən 4 günlük müharibə ilə müqayisə edirlər və belə qənaətə gəlirlər ki, Azərbaycan yenidən təmas xəttində üstünlük əldə edə bilər. Ermənistanın Müdafiə Nazirliyi bununla bağlı etiraz bəyanatı ilə ATƏT-ə müraciət edib və nəzərdə tutulan təlimlərin qarşısını almağa çalışır. Ermənistan rəsmiləri bunu həm də təlimlərin hücum mahiyyətli olması ilə izah edirlər. Ermənistan bizim təlimlərdən niyə belə narahatlıq ifadə edir?

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan müstəqil ölkədir, hərbi doktrinasını özü müəyyən edir:"Müstəqil ölkə kimi, biz nə Ermənistandan, nə də onların havadarlarından icazə istəməliyik. Təlimlərin bir məqsədi var: bütün qoşun növlərinin birgə fəaliyyətini döyüş zamanı düzgün koordinasiya etmək. Həmin təlimlərdə yeni silahların sınaq atışları da həyata keçirilə bilər. Biz bu təlimləri gizli

## *Daşdəmir Əliyev: "İşğalın arxasında Ermənistan durduğundan, onlar bu mövzuda narahatlıq keçirirlər"*




keçirmirik. Təlimlər başlamadan öncə bu barədə ölkəmizdə olan səfirliklərin nümayəndələrinə, hərbi attaşelərinə məlumat verilir. Bizim dövlət rəhbərliyi Ermənistana qarşı müharibə etməklə bağlı bəyanat verməyib. Ancaq biz bəyan edirik ki, işğal altında olan torpaqlarımızı istənilən vaxt işğaldan azad etməyə hazırıq. İşğalın arxasında Ermənistan durduğundan, onlar bu mövzuda narahatlıq keçirirlər. Ancaq bilsinlər ki, Azərbaycanın öz ərazilərini istənilən vaxt işğaldan azad etmək hüququ var. Biz bununla bağlı Ali Baş Komandanın əmrini gözləyirik".

Hərbi ekspertin sözlərinə görə, Azərbaycan Ordusunun təlimlərində işğal olunmuş ərazilərin azad olunması istiqamətində əməliyyatların və hazırlıqların aparılması kimi məsələlər bir nömrəlidir: " Bu da təbii haldır. Çünki Ermənistan ordusu tərəfindən Azərbaycanın 20 faizə yaxın ərazisi işğal edilib. Bu ərazilərin işğaldan azad edilməsi ilə bağlı təlimlərin keçirilməsi təbiidir. Ermənistan tərəfinin fikirləri beynəlxalq ictimaiyyət və təşkilatlarda Azərbaycan haqqında yanlış imic yaratmaq məqsədi daşıyır. Bunlar isə həqiqətə uyğun olmayan fikirlərdir".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan dağılmış Ermənistanda "azərbaycanlı qaçqınlara" pulsuz mənzil paylayır - humanitar siyasət adı altında məkrli yalan...

**Yalan üzərində qurulan erməni siyasəti əvvəlki kimi davam edir. Erməni mediasının yaydığı məlumata görə, Azərbaycandan gələn "qaçqınlara" 800 milyon dollar dəyərində mənzil sertifikatı verilib. Sözügedən sertifikatlar 30 ildir evi olmayan ailələrə verilib.**



Ermənistan Miqrasiya xidmətinin verdiyi məlumata görə, koronavirus səbəbindən və sözügedən şəxslər yaşlı insanlar olduğuna görə qurum şəxsiyyət vəsiqələrini yaşayış yerlərinə təhvil verib. 21 noyabr 2019-cu ildə hökumət "Ermənistan Respublikasının 2019-cu il dövlət büdcəsinə dəyişikliklər və əlavələr edilməsi haqqında" qərar qəbul edib. Sözügedən qərara uyğun olaraq, "qaçqınların" mənzillə təmin edilməsi dövlət büdcəsi hesabına maliyyələşdiriləcək. 112 ailəyə mənzil alması barədə şəhadətnamələr verilir. Proqramın icrası üçün təxminən 1,5 milyard dram ayrılıb. Sertifikat çərçivəsində mənzilə sahib olmaq müddəti 1 ildir.

Guya sözügedən proqram çərçivəsində 30 ildir evi olmayan "qaçqınlar" mənzillə təmin ediləcək. Bütün bunlar gülüncdür.

## *Seyid Camal Əzimbəyli: "Bu şounun məqsədi Qarabağın işğalını pərdələməkdir"*

Əvvəla Ermənistan humanist dövlət deyil deyəsən ki, sözügedən niyyətin kökündə humanizm dayanır. Ən başlıcası, Ermənistan yoxsul dövlətdir. Dövlət büdcəsi xarici yardımlar hesabına formalaşır. Hər il müxtəlif xeyriyyə marafonları adı altında ordan-burdan pul dilənirlər. Mənzil tikintisi ilə bağlı layihələr böyük vəsait tələb edir. Ermənilərin isə mövcud imkanları bu kimi layihələri həyata keçirmək gücündə deyil. Necə deyərlər, acından ölən ölkədə pulsuz mənzil paylanılması mümkün deyil. O zaman bütün bunlar nə deməkdir? Bu kimi kampaniya aparmaqda məqsədləri nədir?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, bütün bunların arxasında xəbis niyyətlər dayanır: "Sözügedən ermənilərə mənzillərin veriləcəyi barədə deyilənlər hamsı boş söhbətdir. Ermənistanın bu kimi sosial xarakterli layihələri həyata keçirmək üçün maliyyə-iqtisadi imkanları yoxdur. Bu, zatən, bəlli olan məsələdir. Belə olan halda, bəs bu şounun məqsədi nədir? Bununla elə görüntü yaradırlar ki, guya onlar hələ də Azərbaycandan gələn "qaçqınların" mənzil problemini həll edə bilməyiblər. Yəni bununla dünyaya göstərmək istəyirlər ki, onların belə bir problemi var. Məqsəd Dağlıq Qarabağ və ətraf rayonların işğalını pərdələməkdir. Bu minvalla, dünya ictimaiyyətini çaşdırmaq istəyirlər. Əsl erməni hiyləgərliyi bax budur. Belə bir saxta rəy yaratmaq istəyirlər ki, guya Azərbaycanın günahı üzündən Ermənistan qaçqın problemindən əziyyət çəkir və s. Beləcə, ölkəmiz barədə mənfi rəy yaratmaq istəyirlər.

## *"Beləcə, ölkəmiz barədə mənfi rəy yaratmaq istəyirlər"*

Ən başlıca məqsəd isə, qeyd etdiyim kimi, Qarabağın işğalını arxa plana keçirməkdir. Ona görə də bu, sırf təbliğat xarakterli siyasi kampaniyadır. Ermənistan dövlətini əhalinin mənzil problemi belə çox narahat edirsə, o zaman 30 il əvvəl baş verən zəlzələ nəticəsində evsiz qalanları mənzillə təmin etsinlər".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Ermənistan üzərində daha bir mühüm diplomatik qələbəyə imza atdı

**Avropa İttifaqında Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən daha bir sənədin qəbulu işğalçı Ermənistanda növbəti fiasko, diplomatik məğlubiyyət olaraq dəyərləndirilməkdədir. Ümumiyyətlə, burada hesab edilir ki, Avropa İttifaqı çərçivəsində Azərbaycanın yürütdüyü fəal siyasət nəticəsində qurumun qəbul etdiyi bütün sənədlərdə Ermənistan işğalçı ölkə qismində göstərilir.**

Qeyd edilən xüsusda bu həftənin əvvəlində Avropa İttifaqı Şurasının 2020-ci ildən sonra "Şərq Tərəfdaşlığı" siyasəti ilə bağlı yekun qərarı da indi Ermənistanda növbəti məğlubiyyət olaraq qəbul edilməkdədir.

Burada Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramının strateji əhəmiyyətini və ümumi rifah, demokratiya və sabitlik üçün ümumi məkan qurmağa sadiqliyini təsdiq edərək, 2020-ci ildən sonrakı dövr üçün "Şərq Tərəfdaşlığı" ölkələrinə münasibətdə siyasətə dair nəticələri təsdiqləyib. Qurum qərarda "Şərq Tərəfdaşlığı"nın bu günə qədər əldə etdiyi mühüm uğurları alqışlayır və proqrama qoşulan ölkələri islahatları davam etdirməyə, bu istiqamətdə səyləri artırmağa təşviq edən vasitə kimi stimul və şərtlərə əsaslanan yanaşmasını təsdiqləyir. Digər məqamlarla yanaşı, Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də yekun qərarda münaqişələrin nizamlanması məsələsinə dair bəndlərdir. Qərarın 2-ci bəndində də "Şərq Tərəfdaşlığı" ideyasının həm siyasi-hüquqi aspektləri, həm də "Şərq Tərəfdaşlığı" çərçivəsində fəaliyyətin əsasını təşkil edən prinsiplər əks edilib. Burada "Şərq Tərəfdaşlığı" çərçivəsində fəaliyyətlərin əsasını müəyyənləşdirən ümumi qarşılıqlı öhdəliklər təsvir olunub. Ən əhəmiyyətli digər bir məqam yenə də həmin bənddə qeyd olunmuş əməkdaşlıq prinsipləridir. Bu prinsiplərə görə, "Şərq Tərəfdaşlığı"ölkələrində ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalara riayət edilməsi ön plana çəkilir. Bunlar həm də Avropa İttifaqı ilə "Şərq Tərəfdaşlığı" arasında əməkdaşlıqda ümumi öhdəliklər kimi qəbul olunur. Daha bir vacib məqam da budur ki, adətən bu sənədlə qəbul olunan qərarlar daha sonrakı "Şərq Tərəfdaşlığı" sammitinin Yekun Bəyannaməsi üçün bir əsas təşkil edir. Belə olan halda, Avropa İttifaqı Şurası tərəfindən qəbul edilən hazırkı sənəddə ərazi bütövlüyü, müstəqillik və suverenlik prinsiplərinin qeyd edilməsi, bu prinsiplərin həm Avropa İttifaqı, həm də "Şərq Tərəfdaşlığı" ölkələri üçün ümumi və ortaq öhdəliklər olaraq müəyyən edilməsi olduqca vacib haldır. Eyni zamanda, Azərbaycanın milli maraqlarına da tamamilə uyğundur. Çünki Avropa İttifaqı bununla bir daha Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini təsdiqləmiş olur. Beləliklə, Avropa İttifaqı Şurası yekun qərarında Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyan prinsipləri yenidən vurğulayır. Maraqlıdır ki, bundan öncəki sənədlərindən fərqli olaraq, Avropa İttifaqı Şurası ilk dəfə olaraq öz sənədində ərazi bütövlüyü, müstəqillik və suverenlik prinsiplərini, beynəlxalq nizama və beynəlxalq hüquqa əsaslanan qaydaları "ortaq öhdəlik" kimi qiymətləndirir və Avropa İttifaqı üçün strateji xarakter daşıyan "fundamental dəyərlər"lə bir siyahıda qeyd edir. Xatırladaq ki, Azərbaycan həmişə tərəfdaş dövlətlərin ərazi bütövlüyünün, suverenliyinin və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının Avropa İttifaqı tərəfindən qəbul olunan sənədlərdə dəstəklənməsinin birmənalı şəkildə ifadə olunmasını tələb edib. Bakı dəfələrlə bildirib ki, bu tələb hər zaman qüvvədə olacaq. Eləcə də bütün münaqişələrin beynəlxalq hüquq normaları əsasında həll olunmasının bir prinsip olaraq qəbul edilməsi və bunun da sənədlərdə öz əksini tapması Azərbaycanın bütün beynəlxalq təşkilatlar qarşısında, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlıq edərkən irəli sürdüyü ən vacib şərtdir. Bu baxımdan, bu il qəbul olunmuş qərarda Azərbaycanın maraqları tam təmin olunub.

Yekun qərarın 17-ci bəndində hərbi münaqişələr məsələsinə yenidən toxunulur, iqtisadi və sosial inkişaf, əməkdaşlıq üçün hərbi münaqişələrin həllinin, etimadın yaradılmasının və yaxşı qonşuluq əlaqələrinin əhəmiyyəti vurğulanır. Həmin bənddə Şura "Şərq Tərəfdaşlığı" regionunun bəzi ölkələrində beynəlxalq hüquq pozuntularının davam etməsindən dərin narahatlığını ifadə edərək, münaqişələrin qarşısının alınması, etimadın yaradılması və razılaşdırılmış danışıqlar formatları və prosesləri çərçivəsində münaqişələrin danışıqlar vasitəsilə sülh yolu ilə həllini dəstəklədiyini bəyan edir. Yekun sənəddə Avropa İttifaqı Şurasının sözügedən çağırışı həmin institutun Dağlıq Qarabağ münaqişəsinin mövcud Minsk Qrupu danışıqlar formatına əvvəlki dəstəyini ifadə edir və separatçıların danışıqlar prosesinə daxil olması ilə bağlı Ermənistan siyasətinin növbəti uğursuzluğunu əks etdirir. Bu mənada. Avropa İttifaqı Şurasının 2020-ci ildən sonra "Şərq Tərəfdaşlığı" siyasəti ilə bağlı yekun qərarı böyük əhəmiyyət kəsb edir. Azərbaycan bunu alqışlasa da, qərar işğalçı Ermənistanın mövqeyinə ziddir. Çünki hər zaman Ermənistan ərazi bütövlüyü məsələsini aqressiya ilə qarşılayır və işğalçı siyasətini davam etdirməyə çalışır. Lakin indiki halda sözügedən Şuranın qərarında ərazi bütövlüyü məsələsinin təsbit olunması Ermənistanın işğalçı mövqeyinə ciddi zərbə vurur. Bu sənəd Azərbaycan diplomatiyasının növbəti ciddi uğuru, Ermənistanın isə diplomatik cəbhədə daha bir məğlubiyyətidir. Beləliklə, Azərbaycanın hücum diplomatiyası növbəti dəfə işğalçı Ermənistana ciddi zərbə vurdu. Elə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov da məsələni məhz bu rakursdan qiymətləndirir. Səməd Seyidov bildirib ki, məlum qərar çox ciddi əhəmiyyət kəsb etməklə yanaşı, həm də Ermənistana, eləcə də onun destruktiv siyasətinə Avropa İttifaqı tərəfindən güclü bir zərbə kimi qiymətləndirilməlidir:"Söhbət "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində ölkələrlə Avropa İttifaqının münasibətlərinin tənzimlənməsi və gələcəkdə "Şərq Tərəfdaşlığı"na üzv dövlətlərin növbəti Zirvə görüşündə qəbul olunacaq sənədlərə dair tövsiyələrdən gedir. Biz, Azərbaycan olaraq, həmişə beynəlxalq təşkilatlarla münasibətlərdə qanunun aliliyinə, beynəlxalq qanunun, bu istiqamətdə Helsinki Yekun Aktının beynəlxalq sənədlərdə tətbiq olunmasına tərəfdar çıxmışıq. Azərbaycan olaraq, heç bir siyasi konyunkturadan asılı olmayaraq vahid yanaşma və ümumi beynəlxalq qanuna söykənən prinsiplərin mövcudluğunun əhəmiyyəti haqqında dəfələrlə çıxış etmişik və edirik. Məhz bu mövqe, bu yanaşma Avropa İttifaqı Şurasının məlum qərarının 2-ci bəndində "Şərq Tərəfdaşlığı"nın siyasi və hüquqi əsasları, o cümlədən ən vacib fəaliyyət prinsiplərində əks olunur. Şura Avropa Qonşuluq Siyasətinin spesifik regional "ölçüsü" olan "Şərq Tərəfdaşlığı"nın strateji əhəmiyyətini bir daha vurğulayaraq, vahid demokratiya, rifah və sabitliyin ümumi məkanının qurulması ilə bağlı birgə öhdəliyi yenidən təsdiq edərək, ərazi bütövlüyü, müstəqillik və suverenlik də daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalara söykənən Aİ "Şərq Tərəfdaşlığı"nın əsas prinsiplərini təsdiq edir. Bu, sadəcə sözlər deyil, bu, Aİnın "Şərq Tərəfdaşlığı" proqramında olan ölkələrlə münasibətlilərin tənzimlənmə prinsipləridir. Bu prinsiplər bu şəkildə təqdim edilirsə, bu, Azərbaycanın maraqlarına tam uyğundur, ermənilərə isə növbəti zərbədir".

Səməd Seyidov vurğulayıb ki, bu qərarda bir vacib məqama da diqqət yetirmək lazımdır:"Nikol Paşinyan və onun ətrafında olan separatçılar uzun müddətdir ki, Qarabağ separatçılarının tərəf kimi danışıqlara cəlb olunmasına cəhd göstərirlər. Azərbaycan Prezidenti dəfələrlə bu siyasətin iç üzünü açaraq onun məntiqsizliyini dünya ictimaiyyətinə təqdim edib. Bu gün isə bu qərarla danışıqlar formatının razılaşdırılmış formada davam etdirilməsi Aİ tərəfindən bir daha təsdiq olunub. İndi özünüz qərar çıxarın, Aİ Şurası ali bir orqandır. Aİ hər hansı bir proqram, o cümlədən "Şərq Tərəfdaşlığı" proqramına daxil olan ölkələrin ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Bu, ilk növbədə o deməkdir ki, bütövlüyü pozulmuş, münaqişə nəticəsində işğal olunmuş ərazilərin məsələsi həmin prinsiplər həyata keçirilməklə razılaşdırılmış formatda öz həllini tapmalıdır.

İkincisi, bu, Azərbaycanın xarici siyasətinin dövlətimizin başçısının vurğuladığı məsələlərin bu beynəlxalq təşkilat tərəfindən dəstəklənməsi deməkdir. Nəhayət, Aİ "Şərq Tərəfdaşlığı"nın üzvü olan Azərbaycanla bütün sahələrdə geniş əlaqələr qurmaqda maraqlı olduğunu və bu əlaqələrin inkişaf etdirilməsinə səy göstərildiyini bəyan edib. Bir sözlə, ərazi bütövlüyünü tanıyan, razılaşdırılmış formatda danışıqları aparan Avropa İttifaqı ilə əlaqələrin təşkil olunması Aİ Şurasının sənədlərində də öz əksini tapıb. Bu, Ermənistanın yalan, böhtan əsasında aparılan destruktiv siyasətinə böyük zərbədir. Biz bu istiqamətdə səylərimizi davam etdirməli və Avropa təşkilatlarında, beynəlxalq qurumlarda Azərbaycanın milli maraqlarını ən yüksək səviyyədə müdafiə etməliyik". Beləliklə, qeyd edilənlər Azərbaycanın Ermənistan üzərində daha bir mühüm diplomatik qələbəyə imza atdığını göstərir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

# Erməni faşizminin ifşasına daha bir fakt ABŞ Konqresindən gəldi

**Qasım Hacıyev:** *"...ermənilərin əməllərinin faş edilməsi baxımından çox əhəmiyyətlidir"*

**Bu gün nasizm siyasətinə ürəkdən bağlı olan və bunu bütövlükdə həyat tərzinə çevirən ermənilərin faşizmə xidmət etməsi faktı artıq bütün dünyaya məlumdur. Ermənilərin özlərini "yazıq xalq" kimi qələmə verməsi artıq dünyanın gözündə iflasa uğramaqdadır. ABŞ Konqresinin ermənilərin Hitlerə və Holokosta rəğbətini ifşa edən sənədi aşkarlanıb.**

Belə ki, Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun ABŞ Konqresi arxivlərində apardığı araşdırma nəticəsində erməni daşnaklarının Hitlerə və Holokost soyqırımına rəğbət bəslədiklərini ifşa edən yeni tarixi sənəd aşkarlanıb. Bu barədə "Report"a Baş Konsulluqdan məlumat verilib. Məlumata görə, 1945-ci il mayın 4-də ABŞ Nümayəndələr Palatasının Miçiqan ştatından olan üzvü, konqresmen Frenk Huk erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəsləmələri, irqçi meylləri, habelə onların ABŞ ərazisində törətdikləri terror aktları barədə məqaləni Konqresin plenar iclasına təqdim edib. Sözügedən məqalə ABŞ Konqresinin qeydiyyat kitabçasına daxil edilərək ABŞ hökuməti tərəfindən dərc edilib. Məqalədə daşnaklar uzun müddət terrorçu-faşist aktları həyata keçirən və yaxşı təşkilatlanmış "quldur dəstəsi" adlandırılır. Daşnakların yaranma tarixindən bəhs edən məqalədə onların terrorizmi əsas siyasi alət kimi mənimsədiklərini bildirilir.

Erməni daşnaklarının ABŞ-da "Daşnaksütyun" partiyasına ianə köçürməkdən imtina edən və ya onların radikal ideologiyasını paylaşmayan ermənilərə qarşı terror aktları törətdikləri qeyd edilən məqalədə bu səpkidə Amerikadakı erməni kilsəsinin rəhbəri, arxiyepiskop Leon Touriyanın 1933-cü ildə Nyu-Yorkdakı kilsədə Milad bayramı ibadəti zamanı daşnak terrorçular tərəfindən qətlə yetirildiyi diqqətə çatdırılır.

Daşnakların nasizmə rəğbət bəslədikləri vurğulanan məqalədə onların ABŞ-ın Boston şəhərində nəşr edilən "Hairenik" qəzetinin 17 sentyabr 1936-cı il sayına istinad edilərək, daşnakların hitlerizmi və faşizmi "bəşəriyyətə hədiyyə" və "Almaniya və İtaliyaya yeni həyat verən uğurlu sistemlər" hesab etdikləri qeyd olunur.

Məqalədə daha sonra daşnakların kəskin antisemit olduqları vurğulanaraq, onların bu mövzuda çoxlu məqalər dərc etdirdikləri bildirilir və "Hairenik" qəzetinin 1936-cı ilin avqust sayından daşnakların Holokostu dəstəklədiyini göstərən aşağıdakı sitat təqdim olunur: "Bu zəhərli elementlər xroniki xəstəlik kimi dərin kök saldıqları üçün bəzən onların kökünü kəsmək çətindir. Və insanlar üçün qeyri-adi üsulla onların kökünü kəsmək zəruri olduqda bu cəhd və üsullar inqilabi hesab edilir. Cərrahiyyə əməliyyatı zamanı isə qanın axması normaldır… Bu cür şəraitlərdə diktatorluq xilaskar rolunu oynayır".

Göründüyü kimi, erməni daşnakları altı milyon yəhudinin nasistlər tərəfindən öldürülməsini "zəhərli elementlərin kökünü kəsmək üçün cərrahiyyə əməliyyatı" adlandırırlar.




A2074 APPENDIX TO THE CONGRESSIONAL RECORD

John R. Flynn and the Dashnags

EXTENSION OF REMARKS OF HON. FRANK E. HOOK OF MICHIGAN IN THE HOUSE OF REPRESENTATIVES

Friday, May 4, 1945

*"Bütün dünya görür ki, ermənilər faşizmə nə qədər könüldən bağlı olub və nasizmin sadiq qulları kimi tarixə düşüblər"*

Sözügedən sənəddə, həmçinin, nasistlərə xidmət etmiş erməni Qaregin Njde haqda məlumat verilərək, onun erməni irqçiliyini təbliğ edən Tseqakronizm nəzəriyyəsinin əsasını qoyduğu və əsasən erməni gənclər arasında bu ideyanı yaydığı, habelə onun Hitlerin irqçi ideyalarını tərənnüm etdiyi və bu ideyaları özü üçün əsas götürdüyü vurğulanır. Məqalədə, həmçinin, Njde və onun erməni daşnak tərəfdaşlarının erməni gənclərinə bu irqçi ideyaları mənimsəmələri və bu ideyalara sadiq qalmaları ilə bağlı çağırışı özündə ehtiva edən və "Hairenik Weekly" qəzetinin 11 yanvar 1935-ci il sayında dərc edilmiş müraciəti təqdim edilir.

Qeyd edək ki, ABŞ-da Azərbaycana qarşı məkrli fəaliyyət göstərən əsas erməni lobbi təşkilatı - Amerika Erməniləri Milli Komitəsi - daşnak təşkilatıdır.

Yeni fakta münasibət bildirən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə açıqlamasında nəzərə çatdırdı ki, bu faktlar həm yenidir, həm də kifayət qədər dünyanın diqqətini çəkəcək, erməniləri sarsıdacaq məzmuna malikdir. "Bilirsiniz ki, ermənilər XX əsrin əvvəllərinə qədər dövləti olmadığına görə onlar dünyanın bir çox yerinə səpələndilər. Onların arasında yerli xalqın içində yaşayaraq böyük var-dövlət toplayanı da, dövlət orqanlarında işləyənlər də oldu. Hesablamalara görə, dünyada 850-dən artıq erməni diaspor təşkilatı var. Bu diaspor təşkilatlarının hamısı birdən yaranmayıb, tədricən yaranıb. Əvvəlcə böyük ölkələrdə - Fransada, sonra ABŞ-da və Rusiyada, daha sonra digər ölkələrdə yaradılıb. O dövlətlərdə yaşayan ermənilər də "dövlət" yaratmaq üçün cəhdlər göstəriblər. Erməni Qriqoryan kilsəsinin rəhbərliyi altında birləşərək planlar hazırlayıblar və dövlət yaratmaq üçün dəstək göstərmələrinə görə böyük dövlətlərə müraciətlər ediblər. Bilirsiniz ki, XVIII əsrin ortalarında İngiltərə krallığına müraciət etmişdilər. Hətta o vaxt razılaşdırılmışdı da. Lakin İngiltərə Türkiyə ilə münasibətlərini ermənilərə görə pozmamaq üçün onları rədd etdi. Deyək ki, onlara müraciət edən komissiya rəhbərlərini qovdular. Sonradan Hindistan ermənisi Şamir Şamiryan və Həştərxanda yerləşən keşiş İsrail Ori Rusiya çarına müraciət etdilər. O vaxt ermənilər dünya siyasətini izləyirdilər, bilirdilər ki, Rusiya imperiyanı genişləndirib, Baltik dənizinə çıxıb, Qara dəniz sahillərində Krım müharibəsində Osmanlını məğlub edərək Krımı alıb, Uzaq Şərqə qədər Sibiri tamamilə işğal edib, Şimali Qafqazı qəsb edib. Bircə Cənubi Qafqaz əraziləri qalmışdı. Ermənilər bu siyasəti tutmuşdular, bilirdilər ki, Rusiyanın isti dənizlərə çıxmaq planı var və ona görə də o vaxt Çar Rusiyasının çox mötəbər canişinlərindən olan Vorantsov Daşkova müraciət etdilər. O isə çarla onları görüşdürdü və orada belə məsələ qoyuldu ki, əgər biz isti dənizlərə gedəriksə, onda ermənilərdən istifadə edə bilərik. Plan belə oldu ki, ermənilərə müsəlman dövlətlərinin arasında şərait yaratmaq lazımdır. Hətta bu, Pyotrun vəsiyyətində də var. O göstəriş verdi, Xəzər dənizinin sahillərinə gəldilər. Ordu geri çəkiləndən, Pyotr öləndən sonra hətta imperatritsa Anna belə bir fikir söyləmişdi ki, biz Türkiyə ilə daim müharibə aparacağıqsa, burada ermənilərdən istifadə olunmalıdır, onlar bizə yararlıdırlar.

Beləliklə, XIX əsrin əvvəllərində Azərbaycan iki yerə bölündükdən sonra Çar Rusiyasının ixtiyarına keçən Azərbaycan xanlıqlarının ərazisində erməniləri gətirib yerləşdirdilər. 40 min İrandan, 90 min nəfər isə Türkiyədən gətirilərək ərazilərimizdə məskunlaşdırıldı. Bu faktları siz bilirsiniz. Amma sonradan erməni dövləti yaratmaqdan ötrü Azərbaycan ərazilərini hissə-hissə aldılar. XX əsrin əvvəllərində bizim torpaqlarımızda erməni dövləti yaratdılar".

Xaricdəki erməni diasporu, ermənilərin Qriqoryan kilsəsi və Azərbaycan torpaqlarında qurulan Ermənistan dövlətinin bütün dünya dövlətləri içində öz siyasətlərini yeritməyə başladıqlarını deyən Q.Hacıyevin sözlərinə görə, həm onlara şərait yaradan imperiyanın qulluğunda durublar, həm də əlləri çatan yerlərdə öz işlərini görüblər. "Bu baxımdan da onların hiyləgərliyi, dünyanın başı qarışdığı vaxtlarda yaranan fürsətlərdən məharətlə istifadə etmək bacarıqları var. Ona görə də İkinci Dünya Müharibəsi dövründə də satqınçılıq etməyə başladılar. Həmin ərəfədə xaricdə yaşayan ermənilərin özləri də dünya üçün böyük fəlakətə çevrildilər. İkinci Dünya Müharibəsində hər şeydən qazanc əldə etməyə çalışan ermənilər nüfuzlu dünya ölkələrinin liderlərinə ayrı-ayrılıqda xidmət göstərdilər, müxtəlif dövlətlərin xeyrinə casusluq etdilər.

Bu gün ABŞ Konqresində ermənilərin Hitlerə və Holokosta rəğbətini ifşa edən sənədin aşkarlanması ermənilərin əməllərinin faş edilməsi baxımından çox əhəmiyyətlidir. Bütün dünya görür ki, ermənilər faşizmə nə qədər könüldən bağlı olub və nasizmin sadiq qulları kimi tarixə düşüblər" - deyə bildirən Q.Hacıyevin sözlərinə görə, bu sənəd ermənilərin həqiqi iç üzünün açılması istiqamətində yeni araşdırmalara, yeni arxiv sənədlərinin meydana çıxmasına şərait yaradacaq.

Erməni keşişlərinin ərəb xəlifələrinə də nökərçilik etdiklərini qeyd edən alimin sözlərinə görə, onlar ərəb xəlifələrinin də xeyrinə casusluq ediblər. "Tarix boyu ermənilər bu işlə məşğul olublar. Hətta xatırladım ki, akademik Ramiz Mehdiyevin bir kitabı çıxıb. Ramiz Mehdiyevin "Qriqoryan kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" kitabında açıq göstərilir ki, ermənilər tacir adı altında Səfəvilər sarayından Konstantinopola nə qədər casusluq ediblər, burada kəşfiyyat işləri aparıblar. Nadir şahın və digər şahların saraylarında da onlar bu işlərlə məşğul olublar. Bu baxımdan, ermənilərin fəaliyyəti ilə bağlı yeni faktlar üzə çıxarılmalıdır.

İkinci Dünya Müharibəsində də ermənilər bu cür neqativ fəaliyyət göstəriblər. Ermənilər ABŞ-da, Britaniyada, Almaniyada olan arxiv sənədlərinə əl atırlar və əllərinə keçənləri imkan olan kimi məhv edirlər. Hətta o vaxt Bakıda da onlar arxiv sənədlərini məhv etmişdilər. Stepan Şaumyanın oğlu Oleq Şaumyan o vaxt Bakıya gələndə atasından, babasından qalan bütün əlyazmaları, məxfi sənədlərin hamısını gizli şəkildə alıb aparıb.

**O biri ölkələrdə də bunu edirlər. İki-üç il bundan əvvəl ermənilər İngiltərənin dövlət arxivindəki türklərə, azərbaycanlılara aid olan sənədlərin əksəriyyətini cırıb məhv ediblər. Tarixi sənədlərin içərisini cırıb zəiflətmişdilər, oxunmaq vəziyyətindən çıxarmışdılar. Bu haqda məlumatlar var. Bütün bunların hamısını bir-birilə əlaqələndirəndə ermənilərin xəyanətləri, hiyləgərlikləri, fəndgirlikləri həmişə olub, olacaq da. Ona görə də Holokos haqqında və digər məsələlər barədə onlar özlərinə uyğun münasibət göstərirlər" - deyə Q.Hacıyev vurğuladı.**

*İradə SARIYEVA*

# ÜST karantini zəiflətdiyi üçün Avropanın 32 ölkəsinə irad tutdu, Azərbaycan isə...

***Şakir Ağayev:** "Bir sıra Avropa dövlətlərinin karantin rejimini birdən-birə zəiflətməsi ÜST-in belə bir xəbərdarlıq etməsinə səbəb olub"*

**Dünyanı cənginə alan koronavirus pandemiyasının tam olaraq aradan qaldırılması mümkün olmayıb. Buna baxmayaraq, bəzi dünya ölkələrində, o cümlədən də Avropa dövlətlərinin bir çoxunda karantin rejiminin zəiflədilməsi prosesi başlanıb.**

Bu ölkələr tədricən, mərhələli şəkildə karantinin yumşaldılması yoluna deyil, birdən-birə bu rejimi ləğv etmək prosesinə üstünlük verirlər. Bu tendensiyanı isə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) təhlükəli hal kimi qiymətləndirərək, Avropa dövlətlərinə "Avropa koronavirusun ikinci dalğasına hazır olmalıdır" çağırışını edib.

ÜST Avropanı arxayınlaşmamağa və payızda koronavirusun ikinci dalğasına hazır olmağa çağırıb.

Bu barədə ÜST-in Avropa bürosunun direktoru Xans Klyuqe bildirib. Klyuqe Avropa ölkələrinə epidemiyaya görə tətbiq edilmiş məhdudlaşdırıcı tədbirlərin ləğvi məsələsində ehtiyatlılıq nümayiş etdirməyi məsləhət görüb.

"Mən ikiqat dalğadan çox narahatam: bizdə payızda COVID-19-un ikinci dalğası və mövsümi qrip və ya qızılcalar ola bilər", - o əlavə edib. ÜST nümayəndəsi, həmçinin, xatırladıb ki, pandemiya hələ qurtarmayıb. Onun sözlərinə görə, 43 Avropa ölkəsindən 32-si karantin tədbirlərini zəiflədir. O bunu tədricən və dəqiq etməyə çağırıb.

"İnsanlar düşünürlər ki, təcridetmə başa çatıb. Heç nə dəyişmədi. Xəstəliklərə nəzarət üzrə tədbirlərin tam həcmi qüvvədə qalmalıdır. Bu əsas şüardır", - Klyuqe qeyd edib.

X.Klyuqe bildirib ki, vəziyyətin yaxşıya doğru dəyişəcəyinə ümid etməyə və ən pisə hazırlaşmağa dəyər.

Koronavirus infeksiyası ötən ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Hazırda virus 212 ölkə və bölgədə qeydə alınıb.

ÜST fevralın 11-də infeksiyanın adını COVID-19 qoyub, martın 11-də isə koronavirusu pandemiya elan edib.

Qeyd edək ki, Azərbaycanda karantin rejimi qüvvədədir və dövlətimiz karantin rejiminin yumşaldılması prosesini tədricən həyata keçirir. Odur ki, Azərbaycan bununla ÜST-in pandemiya ilə bağlı verdiyi təlimatlara tam uyğun olan davranış sərgiləyir. ÜST Azərbaycanın prosesə bu cür yanaşmasını dəfələrlə təqdir edib, bununla bağlı ölkəmizə təşəkkürlər ünvanlayıb.

ÜST-in təşəkkür etdiyi Azərbaycan dövlətinin və irad bildirdiyi bir sıra Avropa ölkəsinin karantin rejiminə münasibətini şərh edən "Novoe vremya" qəzetinin baş redaktoru, tanınmış siyasi şərhçi Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, ÜST-in payızda koronavirusun ikinci dalğasının başlayacağına dair Avropaya xəbərdarlıq etməsi təsadüfi deyil. O qeyd etdi ki, bütün mütəxəssislər, virusoloqların qənaətincə, epidemiyanın, pandemiyanın ən çox yayıldığı dövr yaz-payız aylarıdır. "ÜST xəbərdarlıq edir ki, payızda pandemiyanın ikinci dövrü başlaya bilər. Hətta qurum təmsilçisi qeyd edir ki, bu daha təhlükəli ola bilər. Pandemiyanın ikinci dalğasının baş verəcəyi qeyd edildiyi bir dövrdə bir sıra Avropa dövlətlərinin karantin rejimini birdən-birə zəiflətməsi, karantin rejimindən tədricən çıxmaq yolunu tutmaması ÜST-in belə bir xəbərdarlıq etməsinə səbəb olub. Bu da, əlbəttə, böyük fəsadlar yarada bilər. Bu baxımdan, ÜST-in Avropa dövlətləri ilə bağlı narahatlığı təbiidir.

Düzdür, başa düşürəm ki, aylarla karantində qalmaq çətindir, dövlətlərin iqtisadiyyatı, maliyyəsi buna dözə bilməz, ölkələrin bu vəziyyətə tab gətirməsi çox ağırdır. Eyni zamanda, insanların mənəvi-psixoloji cəhətdən buna dözməsi çox çətindir. Ona görə də həmin dövlətlər koronavirusla bağlı olan karantin rejimindən çıxırlar və insanlar üçün iş yerlərinin bərpasına, iqtisadiyyatın inkişafına, maliyyə sisteminin tənzimlənməsinə və sair məsələlərə rəvac verirlər. Biz əgər karantini birdən-birə zəiflədən Avropa dövlətləri ilə Azərbaycanı müqayisə etsək, hələ pandemiyanın ilk dövrlərindən Azərbaycan dövlətinin çox düzgün yol tutduğunun və düzgün mübarizə üsulu seçdiyinin özünü təsdiqlədiyini görə bilərik. Pandemiya ilə mübarizə istiqamətində ilk qabaqlayıcı tədbirlər görən, karantin rejimi elan edən ölkələrdən biri məhz Azərbaycan oldu. Aprelin 5-də Azərbaycanda karantin rejimi xüsusilə sərtləşdirildi. Təbii ki, bu, Azərbaycan üçün də çox ağır iqtisadi, maliyyə itkiləri ilə nəticələnən bir qərar idi. Ölkə başçısı ortaya irada qoydu və vətəndaşların təhlükəsizliyini, sağlamlığını bunlardan üstün tutdu. Pandemiyanın kəskin xarakter almaması və insan itkisinin az olması üçün dövlət büdcəsindən 4 milyard manata qədər vəsait ayırdı. Eyni zamanda, dövlətimiz karantin rejimini gücləndirdi ki, vətəndaşlarımız bu ağrılı prosesdən az itki ilə çıxsınlar.

Bu gün, təbii ki, Azərbaycan dövlətinin karantin rejimindən mərhələ-mərhələ çıxmasının özü dünya üçün bir nümunədir. Bilirsiniz ki, dünya statistikası ilə müqayisədə karantin rejimindən bütün ölkələrdən tez biz çıxa, hər yeri aça bilərdik, hər yerdə fəaliyyət bərpa oluna bilərdi, ölkənin vergi, gömrük sistemində də, büdcəyə də pul yığılardı, insanlara yardım edilməzdi, onlar işləyib pul qazanardılar. Amma Azərbaycan Prezidenti bu yükü dövlətin çiyninə qoydu və vətəndaşların pandemiyadan xilas olunması üçün karantin rejimindən mərhələli şəkildə çıxılması üçün qərar verdi. Görünür ki, bu çox düzgün addımdır".

Ş.Ağayev qeyd etdi ki, karantin rejiminin yumşaldılması nəticəsində yoluxanların statistikasında artım müşahidə edilir. Bunun da vətəndaş məsuliyyətsizliyi ilə bağlı olduğunu deyən Ş.Ağayevin sözlərinə görə, insanların ehtiyac olmadığı halda küçəyə çıxmasına lüzum yoxdur. "İnsanlar özləri dərk etməlidirlər ki, görülən bütün tədbirlər onların sağlamlığı, dövlətin pandemiyaya qarşı gördüyü işlər onların özlərini, ailələrini qorumaq üçündür. Təbii ki, insanlar buna əməl etməlidirlər. Mən Azərbaycan dövlətinin ÜST-in bütün tələblərinə uyğun addımlar atmasını, karantin rejimindən mərhələ-mərhələ çıxmaq barədə qərarını düzgün hesab edirəm. Bilirsiniz ki, mayın 31-nə qədər bütün iri ticarət obyektlərinin fəaliyyətinə, kütləvi toplantılara qadağalar qoyulub. Bu qadağa ölkəmizin iri şəhərlərində və Abşeronda qüvvədədir. Çünki ən çox əhali buradadır".

Ş.Ağayev hesab edir ki, birdən-birə hər yeri, o cümlədən də sərhədləri açmaq hələ tezdir. Onun sözlərinə görə, pandemiyanın ikinci dalğasına qədər prosesləri elə aparmaq lazımdır ki, ikinci dalğanı dövlət yüngül hiss etsin. "Pandemiyanın ikinci dalğası olur və heç bir dövlət bundan sığortalanmayıb, necə ki, birinci dalğasından sığortalanmamışdı. Amma pandemiyanın birinci dalğası dünyaya dərs verdi ki, ölkələrin infrastrukturu, xəstəxanaları, karantin yerləri ikinci dalğaya hazır olmalıdır. Belə olarsa, hesab edirəm ki, virusun ikinci dalğasında da daha az itkilərlə üzləşə bilərik. İnşallah, ikinci dalğa güclü olmaz, olsa da, Azərbaycan dövləti və xalqı birinci dalğada olduğu kimi, ikinci dalğadan da əl-ələ verib, həmrəylik göstərib az itki ilə çıxacaq" - deyə Ş.Ağayev bildirdi.

***İradə SARIYEVA***




*"...düzgün mübarizə üsulu seçdiyinin özünü təsdiqlədiyini görə bilərik"*

**Məlum olduğu kimi, faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə bu qələbənin qazanılmasında xüsusi əməyi olan ölkələrdə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdu. Koronavirus pandemiyası ilə əlaqədar olaraq tədbirlərin keçirilməsi təxirə salınsa da, bu istiqamətdə digər işlər görülür.**

# Xaricdə və hansı şəraitdə dəfn edilmiş Sovet İttifaqı qəhrəmanlarımız - "Xatirə kitabı"nın maraqlı araşdırmaları...

***Nəzakət Məmmədova:** ”Xarici ölkələrdə dəfn edilən Sovet İttifaqı qəhrəmanlarının bundan sonra da xatirələrinin əbədiləşdirilməsi istiqamətində işlər davam etdiriləcək”*



*”Qələbə-75” nəşrində yalnız Azərbaycandan İkinci Dünya Müharibəsinə gedən, qəhrəmanlıq göstərən vətən oğulları barədə deyil, həmçinin, digər respublikalardan...”*

Bu gün Azərbaycanda çox aktual olan bu məsələ ilə bağlı müxtəlif aidiyyəti qurumlar tərəfindən işlər görülür. Mədəniyyət Nazirliyinin Respublika "Xatirə kitabı" redaksiyasının kollektivinin faşizm üzərində Qələbənin 75 illiyi ilə əlaqədar həyata keçirdiyi işlər bu mənada diqqəti cəlb edir. "Xatirə kitabı" redaksiyası ölkəmizdə dəfn edilən Sovet İttifaqı qəhrəmanları və İkinci Dünya Müharibəsinin digər iştirakçıları ilə yanaşı, həm də xaricdə dəfn edilən qəhrəmanlarımızın xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər görür, bununla bağlı "Qələbə - 75" adlı kitab hazırlayıb. Nəşrdə həm Sovet İttifaqı qəhrəmanlarımız, həm də Qələbənin qazanılmasında rolu olan ayrı-ayrı vətən övladlarımız haqqında müfəssəl məlumatlar yer alıb.

"Xatirə kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova ilə əlaqə saxlayıb həm nəşr haqqında, həm də müxtəlif ölkələrdə dəfn edilən azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlərdən danışdıq.

"Bu il II Dünya Müharibəsində faşizm üzərində Qələbənin 75 illiyi qeyd olunur. Bu Qələbədə Azərbaycanın da xüsusi rolu olub. Təkcə rəqəmlərə diqqət yetirsək, məncə, kifayət edər. Böyük Vətən Müharibəsi başlayanda, yəni 1941-ci ilin statistikasına görə, Azərbaycanda əhalinin ümumi sayı 3,4 milyon nəfər idi. Buraya həm döyüş qabiliyyəti olan cavanlar və gənclər, həm əlillər, həm ahıllar, həm də qadın və uşaqlar daxil idi. 3,4 milyon nəfərdən 681 min nəfəri, o cümlədən, 10 min qadın orduya səfərbər olunmuşdu. Bunların tam yarısı, yəni 300 min nəfəri bir daha doğma yurduna qayıtmayıb. Ürəkyandırıcı faktdır. Azərbaycanın Ümummilli lideri Heydər Əliyev deyib: "Azərbaycan xalqı İkinci Dünya Müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl

şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir".

Məhz bu səbəbdən idi ki, müharibədə həlak olan və itkin düşən soydaşlarımızın xatirəsini əbədiləşdirmək üçün "Xatirə kitabı" redaksiyası yarandı. Bu redaksiyanın fəaliyyəti barədə qısaca məlumat vermək istəyirəm. Azərbaycan Sovet Ensiklopediyası nəzdində bir şöbə kimi fəaliyyət göstərən Respublika "Xatirə kitabı" redaksiyası Nazirlər Kabinetinin 21 avqust 1991-ci il tarixli, 277 saylı qərarı ilə müstəqil quruma çevrilib. Amma bu dövrdə redaksiyanın fəaliyyətində nəzərəçarpacaq irəliləyiş olmayıb. 1994-cü ildə Nazirlər Kabineti yenidən qərar verib. Lakin bu dəfə də işlər lazımi məcraya düşməyib. Belə ki, ölkədə baş verən ictimai-siyasi hadisələrin gərginliyi və iqtisadi çətinliklər ucbatından redaksiyanın fəaliyyəti üçün vəsait ayrılması məsələsi öz həllini tapa bilməyib. Ulu öndərimiz Heydər Əliyevin tapşırığı ilə Nazirlər Kabineti 1 may 1997-ci il tarixində "Azərbaycan Respublikası "Xatirə kitabı"nın bərpa edilməsi haqqında" xüsusi qərar qəbul edib.

Sonra isə Heydər Əliyevin imzaladığı 23 dekabr 1997-ci il tarixli "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Qanun qüvvəyə minib. Beləliklə, "Xatirə kitabı" redaksiyası ayrıca bəndlə dövlət büdcəsinə daxil edilib və bununla da redaksiyanın fəaliyyətində dönüş yaranıb. Ona görə də minnətdarlıq əlaməti olaraq kitabın hər cildi o böyük insanın portreti və "Heydər Əliyev "Xatirə kitabı"nın yaradıcısıdır" sözləri ilə açılır.

"Xatirə kitabı"nı yaddaşımızın kitab abidəsi adlandırmaq da olar. Onun yaradılmasında əsas məqsəd İkinci Dünya Müharibəsində, məhəlli münaqişələrdə, Polşa, Çexoslovakiya, Macarıstan hadisələrində, Əfqanıstan müharibəsində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ döyüşlərində, milli müstəqilliyimiz yolunda, torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə həlak olmuş və itkin düşmüş soydaşlarımız haqqında çoxcildlik ensiklopediya hazırlamaqdır".

Kitabın redaksiya heyətinə akademiklərin, görkəmli elm, mədəniyyət xadimlərinin və güc strukturlarının rəhbərlərinin daxil olduğunu deyən N.Məmmədovanın sözlərinə görə, indiyə kimi kitabın 16 cildi nəşr olunub və növbəti cildlərin hazırlanması üzərində işlər davam etdirilir. "Xatirə kitabı" redaksiyası öz fəaliyyətində təkcə respublikadaxili müvafiq arxiv materiallarının araşdırılması ilə kifayətlənməyib, Rusiya Federasiyası Müdafiə Nazirliyinin müxtəlif arxivlərindən, "Ümumrusiya Tarixçilər və Arxivçilər Cəmiyyəti"ndən, "Sevastopolun müdafiəsi və azad edilməsi" muzeyindən, Şimali Osetiya Respublikası Mozdok rayonunun "Poisk" axtarış dəstəsindən, Moldova Respublikasından, Avstriya Respublikasından və digər yerlərdən əldə etdiyi məlumatları araşdırıb dəqiqləşdirməklə daim axtarışda olub. Axtarış və araşdırmalar bu gün də davam edir. Bu axtarışlar nəticəsində indiyə qədər aşkara çıxarılmamış 3000 nəfərə yaxın həlak olmuş və itkin düşmüş

soydaşımız barədə məlumatlar dəqiqləşdirilib və onların bir qismi cildlərə daxil edilib.

Almaniya Sovet İttifaqına qarşı müharibəyə 22 iyun 1941-ci ildə başladı. Alman komandanlığı Bakı neftinə xüsusi önəm verirdi və Qafqaz uğrunda vuruşlarda əsas məqsəd Bakı üzərində nəzarəti ələ keçirmək idi. O zaman SSRİ-də çıxarılan neftin təxminən 3/4 hissəsini Azərbaycan verirdi. Təkcə 1941-ci ildə Azərbaycanda 23,5 milyon ton neft çıxarıldı. Müharibə illərində Azərbaycan Sovet İttifaqının başlıca bazasına çevrilərək 75 milyon ton neft verdi. Vuruşan təyyarələrin 85-90 faizi Azərbaycan benzini ilə işləyir, düşmənə ağır zərbələr endirirdi. Müharibədə Azərbaycan cəbhəni təkcə neftlə təmin etmirdi. Azərbaycanlı əsgər və zabitlər od-alov püskürən döyüş meydanlarında misilsiz şücaət göstərirdilər. Cəbhənin elə bir istiqaməti yox idi ki, həmvətənlərimiz orada iştirak etməsinlər. Azərbaycanlılardan ibarət 416-cı, 223-cü, 77-ci milli diviziyalar təşkil olunmuşdu. Bu diviziyalarda Azərbaycandan 121 nəfər soydaşımız böyük şücaət və qəhrəmanlıqlar göstərərək SSRİ-nin ən yüksək fəxri adına - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər.

Şimali Qafqazın müdafiəsində Qafur Məmmədov, Stalinqrad uğrunda döyüşlərdə Həzi Aslanov, Margita şəhərində gedən döyüşlərdə igidliyə görə Gəray Əsədov "Qızıl Ulduz" almışlar. Bu şərəfə tank qoşunları general-mayoru H.Aslanov 2 dəfə layiq görülüb. Araşdırmaların nəticəsi olaraq əldə olunan yeni məlumatlar da gələcək cildlərdə yer alacaq.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan "Xatirə kitabı" redaksiyası Böyük Vətən Müharibəsində qazanılan Qələbənin 75 illik yubileyi münasibətilə "Qələbə-75" adlı xüsusi buraxılış hazırlayıb. Qeyd olunan xüsusi buraxılışda Azərbaycanın İkinci Dünya

Müharibəsində iştirak etmiş qəhrəman övladları haqqında məlumatlar xüsusi araşdırılaraq verilib, Azərbaycanın Sovet İttifaqı qəhrəmanlarının həyatı və keçdiyi döyüş yolu haqqında məlumatlar Azərbaycan və rus dillərində öz əksini tapıb.

Kitabdakı faktlar ciddi tarixi resurslara əsaslanıb, müharibənin yaratdığı faciələr dolğun ifadəsini tapıb. Bir sözlə, Böyük Vətən Müharibəsi zamanı Azərbaycan xalqının mübarizə əzmi, Bakı nefti, arxa cəbhədə çalışanların fədakarlığı kitabın ən müfəssəl tarixi gerçəkləridir. Ümid edirik ki, "Xatirə kitabı" redaksiyasının hazırladığı "Qələbə-75: Azərbaycan xalqının mübarizə əzmi" kitabı 9 May - Qələbə gününə layiqli töhfədir".

N.Məmmədova, həmçinin, qeyd etdi ki, İkinci Dünya Müharibəsində böyük qəhrəmanlıq göstərən və müxtəlif ölkələrin faşizmin caynağından xilas edilməsi uğrunda canını fəda edən Azərbaycan övladlarının bir qismi xarici ölkələrdə dəfn edilib. O bildirdi ki, onlar arasında 18 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən azərbaycanlılar da var və onların məzarları Almaniya, Polşa, Macarıstan, Rusiya, Ukraynada və digər ölkələrdədir.

N.Məmmədova diqqətə çatdırdı ki, Əhmədov Cəmil Məhəmməd oğlu Polşa Respublikasının Varşava şəhərində sovet döyüşçülərinə aid qəbiristanlıqda dəfn edilib. O, Dalaşov Məhərrəm Əkbər oğlunun Rumıniya Respublikasının Stremts ərazisində, Əkbərov Qəzənfər Qulam oğlunun Polşa Respublikasının Volomin şəhəri yaxınlığındakı Nadma yaşayış məntəqəsində, Ələkbərov Mikayıl Məhəmməd oğlunun Ukrayna Respublikası Dnepropetrovsk vilayətinin Şerbinovka kəndində dəfn edildiklərini qeyd etdi. Müsahibimiz, həmçinin, bildirdi ki, sonradan Mikayıl Ələkbərovun məzarı Soroçinsk rayonunun Rudka kəndinə köçürülüb.

Baş redaktor Əliyev Məstan Astan oğlunun Almaniyanın Alttrebbin yaşayış məntəqəsindən 8 kilometr cənub-qərbdə yerləşən Vriçen (Wriezen) şəhərində, Əliyev Şəmsulla Feyzulla oğlunun Kerç şəhərində, Əsədov Gəray Lətif oğlunun Rumıniya Respublikası Marqita şəhəri yaxınlığında Bixor ərazisində hərbi məzarlıqda, Bayramov İsmayıl Xəlil oğlunun Polşa Respublikasında qardaşlıq məzarlığında, Verdiyev Əvəz Həşim oğlunun Polşanın Boleslaves şəhərində qardaşlıq qəbiristanlığında, Abdullayev Məmiş Şahbaz oğlunun Polşa torpağında, Abdullayev Səməd Həmid oğlunun Kerç şəhəri ərazisindəki Eltigen qəsəbəsində dəfn edildiyini vurğuladı.

N.Məmmədovanın sözlərinə görə, sonradan 318-ci atıcı diviziyanın əsgər və zabitlərinin igidliyi şərəfinə Eltigen qəsəbəsinin adı dəyişdirilərək Qeroysk qəsəbəsi olub.

Vəliyev Mirzə Dövlət oğlunun Macarıstan Respublikasının Vaşad qəsəbəsində, Bəkir Dursun oğlu Mustafayevin Özbəkistan Respublikasının Səmərqənd vilayətindəki Qaynama kəndində, Həbibulla Eynulla oğlu Hüseynovun Litva Respublikasının Mariyampole şəhərində dəfn edildiyini qeyd edən N.Məmmədova bildirdi ki, Mehdi Hənifə oğlu Hüseynzadənin məzarı Sloveniya Respublikasının Çepovan yaşayış məntəqəsindədir. Məmmədov Əmi Ağa oğlunun Ukrayna Respublikası Nikolayev şəhərində, Məmmədov Qafur Nəsir oğlunun Krasnodar diyarının Tuapse şəhərində, Məmməd Cəbrayıl oğlu Məmmədovun isə Polşa Respublikası, Nijnesilezsk voevodunun, Oder çayı yaxınlığında dəfn edildiyini bildirdi. N.Məmmədova, həmçinin, qeyd etdi ki, onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində addımlar atılır. Onun sözlərinə görə, artıq Rusiyada iki azərbaycanlı Sovet İttifaqı Qəhrəmanının adının əbədiləşdirilməsi istiqamətində işlər görülür. O vurğuladı ki, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Moskvada adının əbədiləşdirilməsi istiqamətində işlər görülür. Belə ki, Həzi Aslanovun adının Moskva metrostansiyalarından və küçələrdən birinə verilməsi barədə Rusiya Prezidenti Vladimir Putinə və Moskva merinə müraciət edildiyini deyən N.Məmmədova hesab edir ki, yaxın vaxtlar bu məsələ real həllini tapacaq. Bu istiqamətdə Moskvadakı Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri Əli Kazımovun "Xatirə kitabı" redaksiyasına yaxından dəstək göstərdiyini deyən N.Məmmədovanın bildirdiyinə görə, digər qəhrəmanlarımızın xatirələrinin əbədiləşdirilməsi istiqamətində də addımlar atılır.

"Bir məsələni də qeyd edim ki, "Qələbə-75" nəşrində yalnız Azərbaycandan İkinci Dünya Müharibəsinə gedən, qəhrəmanlıq göstərən vətən oğulları barədə deyil, həmçinin, Gürcüstandan, indiki Ermənistan ərazisindən və digər respublikalardan gedən soydaşlarımız haqqında da məlumatlar yer alıb. Bu istiqamətdə böyük işlər görülüb və bundan sonra da yeni məlumatların əldə edilməsi üçün axtarışlarımız davam etdiriləcək. Hesab edirəm ki, xarici ölkələrdə dəfn edilən Sovet İttifaqı qəhrəmanlarının bundan sonra da xatirələrinin əbədiləşdirilməsi istiqamətində işlər davam etdiriləcək" - deyə N.Məmmədova vurğuladı.

***İradə SARIYEVA***

**Dünya iqtisadiyyatını qarşıda gözləyən dövr üçün kifayət qədər bədbin proqnozlar səslənməkdədir. Verilən proqnozlar iqtisadiyyatda əhəmiyyətli dərəcədə gerilələmələr olacağını deməyə əsas verir.**

# Postpandemiya dövrü üçün dünya iqtisadiyyatı barədə bədbin proqnozlar Azərbaycandan yan keçir...



BMT-nin İqtisadi və sosial işlər departamentinin "Dünyada iqtisadi vəziyyət və perspektivlər" adlı son hesabatında bildirilir ki, cari ildə dünya iqtisadiyyatı COVID-19 pandemiyası nəticəsində 3,2 faiz kiçilib, yəni 8,5 trilyon ABŞ dolları məbləğində zərərə uğrayıb:"Bu qədər itkilər dünya ÜDM-nin əvvəlki dörd ildəki artımını heçə endirəcək. Həm də ÜDM sənayesi inkişaf etmiş ölkələrdə daha çox, 5 faiz azalacaq, inkişaf edən ölkələrdə isə azalma 0,7 faiz olacaq".

Bildirilir ki, yeni koronavirus pandemiyası ilə bağlı tətbiq edilən məhdudiyyətlər dünya iqtisadiyyatının 90 faizinə təsir edərkən istehsalat zəncirlərinin pozulmasına, tələbatın azalmasına, işsizliyin artmasına gətirib çıxarıb. Hesabat müəlliflərinə görə, koronavirusun fəsadları üzündən dünyada 56 faizi Afrikanın payına düşən 34,3 milyon insan yoxsulluq həddindən aşağıya düşəcək:"Bir çox ölkələrdə hökumət tərəfindən həyata keçirilən və dünya ÜDM-nin 10 faizinə qədər müvafiq olan təkanverici tədbirlər müsbət haldır. Pandemiya başa çatandan sonra dünya iqtisadiyyatının nə qədər tez dirçələcəyi dövlətlərin iş yerlərini qoruyub saxlamaq, əhalinin daha çox zərərə uğrayan təbəqələri üçün gəlir təmin etmək bacarığından birbaşa asılıdır". Qərargahı Manilada yerləşən Asiya İnkişaf Bankının hesabatında da bədbin məqamlar yer alıb. Qeyd edilir ki, bu il koronavirus pandemiyasının yaratdığı fəsadlara görə dünya iqtisadiyyatının itkisi 5,8 - 8,8 trilyon dollar aralığında dəyişə bilər:"Yeni növ koronavirusun səbəb olduğu pandemiya nəticəsində dünya iqtisadiyyatı 5,8 trilyondan 8,8 trilyon ABŞ dollarına qədər itki verə bilər ki, bu da qlobal ümumi daxili məhsulun 6,4 - 9,7%-nə bərabərdir". Bank ekspertləri qeyd ediblər ki, zərərlərinin 8,8 trilyon dollar olacağı təxmini məhdudiyyətlərin altı ay ərzində qüvvədə olacağı uzunmüddətli risq dövrü üçün ssenarinin qiymətləndirilməsidir. İqtisadi aktivliyin üç ayda bərpa olunacağı ssenaridə isə bu rəqəm 5,8 trilyon dollar olacaq. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı da qlobal iqtisadiyyatın azalacağını bildirir. Amma bu azalmalar ölkələr üzrə fərqlidir. Məsələn, Azərbaycan nadir ölkələrdəndir ki, cari ilin ötən dövründə iqtisadiyyatında artım qeydə alınıb.

Qeyd edək ki, bu ilin yanvar-aprel aylarında Azərbaycanda 22 milyard 400 milyon manat dəyərində ümumi daxili məhsul istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 0,2% çoxdur. Özü də bu artım əsas etibarı ilə qeyri-neft sektoru hesabına baş verib. Belə ki, 4 aylıq ÜDM-in 14 milyard 530 milyon manatlıq hissəsi qeyri-neft-qaz sektorunun payına düşüb. Bu isə qeyri-neft sektorunun ÜDM-də payının 70 faizi keçməsi deməkdir. Avropa Yenidənqurma və İnkişaf Bankı da Azərbaycanın digərləri ilə müqayisədə daha bir üstünlüyə malik olduğunu bildirir. Bankın hesabatında qeyd olunur ki, 2019-cu ildə Azərbaycan ÜDM-inin artım tempi indi daha çox qeyri-neft sektoru hesabınadır və bu da digər enerji hasilatçıları ilə müqayisədə onun əlavə üstünlüyüdür. Bildirilir ki, kənd təsərrüfatı və xidmət sektoru da müsbət dinamika göstərir:"Aprel ayında valyutaya təzyiq də azalıb. Bank sektoruna inamı artırmaq üçün hökumət fiziki şəxslərin əmanətlərinin tam sığortalanması müddətini 2020-ci ilin dekabr ayının əvvəlinə qədər uzatdı. Mübadilə məzənnəsi bu gün sabit olaraq qalır. ARDNF-in böyük aktivləri (ÜDM-nin təxminən 90%-i) xarici şokların iqtisadiyyata təsirini yumşaltmağa davam edəcək". Bank artıq 2020-ci ilin üçüncü rübündə ölkəmizdə iqtisadi artımın daha sürətli olacağını gözləyir.

Daha bir vacib məqam odur ki, Azərbaycan əksər ölkələrdən fərqli olaraq investisiya baxımından da əlverişli mövqedədir. Belə ki, bu ilin yanvar-aprel aylarında Azərbaycanda əsas kapitala 3 milyard 903 milyon manat vəsait yönəldilib. Məlumata görə, son 1 ildə neft-qaz sektoruna yatırılmış investisiyalar 18,8% artıb. İstifadə olunmuş vəsaitin 2 milyard 622,3 milyon manatı və yaxud 67,2%-i məhsul istehsalı sahələrinə, 875,2 milyon manatı və yaxud 22,4%-i xidmət sahələrinə, 406 milyon manatı və yaxud 10,4%-i isə yaşayış evlərinin tikintisinə sərf olunub. Pandemiya dönəmində bunlar kifayət qədər yüksək göstəricilər sayılır. Xarici ticarət sahəsində də durum əlverişlidir. Belə ki, bu ilin yanvar-aprel aylarında Azərbaycan xarici ölkələrlə 9,7 milyard dollar dəyərində ticarət əməliyyatı aparıb.

Dörd aylıq xarici ticarət dövriyyəsinin 6,3 milyard dolları ixracın, 3,4 milyard dolları isə idxalın payına düşüb. Son 1 ildə idxal 25,7% azalıb. Son nəticədə xarici ticarətdə 2,9 milyard dollarlıq müsbət saldo yaranıb. Bu, illik müqayisədə 15,1% çoxdur. Belə vəziyyət ölkənin daha çox valyutaya qənaət etməsinə imkan verir. Yeri gəlmişkən qeyd edək ki, bu böhran şəraitində Azərbaycan maliyyə yardımı üçün Beynəlxalq Valyuta Fonduna müraciət etməyib. Halbuki, 150-dən çox ölkə Beynəlxalq Valyuta Fonduna və ya Dünya Bankına yardım almaq üçün müraciət edib. Azərbaycanın isə kifayət maliyyə ehtiyatları var. Bu da iqtisadiyyatın yeni dönəmdəki inkişafı və onun səngiyən sahələrini yenidən işə salmaq üçün çox böyük imkanlar yaradır.

***Ramil QULİYEV***

**Azərbaycan koronavirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağırışlarına dəstək verərək Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırıb. Habelə, Azərbaycan Respublikası tərəfindən bir sıra ölkələrə də ikitərəfli əsasda yardım həyata keçirilmiş və keçirilməkdədir.**

# Azərbaycan ÜST xətti ilə bir sıra ölkələrə yeni yardımlara başlayır




## Rüfət Quliyev: *"Koronavirus pandemiyası ilə əlaqədar olaraq Azərbaycan bir sıra ehtiyacı olan ölkələrə köməklik göstərir"*

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın bir neçə gün öncə keçirilən brifinqində bu məsələyə də toxunub.

O qeyd edib ki, Azərbaycan Respublikası ÜST-ə koronavirusla mübarizədə maliyyə vəsaiti ayırıb: "Bu vəsait ÜST tərəfindən koronavirusla mübarizədə çətinlik çəkən ölkələrə göndəriləcək. Qonşu İran, Qırğız, Xorvatiya, Pakistan, Serbiya respublikasına maliyyə yardımı göstərilib. Serbiyaya yaxın müddət ərzində yardım nəzərdə tutulur. Eyni zamanda, Fələstin qaçqınlarına yardım üçün müraciət daxil olub və bu yardımın Yaxın Şərq agentliyinə verilməsi nəzərdə tutulur. Sözügedən agentliyə müəyyən yardımlar həyata keçirilib".

Qeyd etdiyimiz kimi, koronavirusun ilk yayıldığı günlərdən bəri Azərbaycan ehtiyacı olan ölkələrə köməklik göstərir.

Millət vəkili Rüfət Quliyev qeyd etdi ki, Azərbaycan dövləti və Prezident İlham Əliyev koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində qlobal arenada bu mübarizənin uğurla nəticələnməsi üçün mühüm platformalarla çıxış edir: "Dünyada baş verən qlobal dəyişikliklər, ekoloji fəlakətlər, nəticə etibarilə, böhran

> *"...bu pandemiyaya qarşı mübarizə istiqamətində beynəlxalq səviyyədə təşəbbüslərini və gördüyü işləri..."*

dönəmini meydana gətirməkdədir. Böhran dönəmində idarəetmə mexanizmi və liderlik qabiliyyəti ən əsas amillərdən biridir ki, bu amillərin sayəsində o ölkə həmin bəlalardan qurtula bilsin. Onun sözlərinə görə, bu istiqamətdə Prezident İlham Əliyev tərəfindən pandemiyanın yayıldığı ilk dövrdən ölkəmizdə əhalinin sağlamlığının qorunması və təhlükəsizliyinin ən yüksək səviyyədə qarantiya altına alınması, ölkəmizin minimal zərərlə bu bəladan qurtulması ilə bağlı atılan addımlar liderliyin əsas məqamlarından biridir. Danılmaz faktdır ki, bu gün dünyanın bir çox ölkəsi, beynəlxalq təşkilatlar Azərbaycanın həm COVID-19-a qarşı ölkə daxilində mübarizəsini, həm də qlobal şəkildə bu pandemiyaya qarşı mübarizə istiqamətində beynəlxalq səviyyədə təşəbbüslərini və gördüyü işləri yüksək qiymətləndirir. Onu da qeyd edim ki, koronavirus pandemiyası ilə əlaqədar olaraq Azərbaycan bir sıra ehtiyacı olan ölkələrə köməklik göstərir. Bu o deməkdir ki, Azərbaycan inkişaf dövrünü yaşayır və yardıma ehtiyacı olanlara dəstək verir".

***Günel CƏLİLOVA***

**Ölkədə koronavirusla bağlı karantin rejimi yumşaldılsa da, təhsil və bir sıra xidmət sahələrində işlər hələ ki, onlayn qaydada aparılır. Məlumdur ki, 3 martdan etibarən 4447 orta məktəbdə təhsil alan 1,6 milyon şagird üçün dərsin normal axarı pozulub. Lakin Təhsil Nazirliyi 11 martdan başlayaraq teledərs, 2 apreldən etibarən "Virtual məktəb" layihəsi ilə şagirdlərə təhsilin əlçatanlılığını təmin etməyə çalışır.**

# Azərbaycanda onlayn tədrisə böyük maneə - internetin sürətindən narazılıq var



***Günel Gözəlova:** "Mütəxəssislərimiz istifadəçilərin fasiləsiz və sürətli internetə çıxışını təmin etmək məqsədilə..."*

***Osman Gündüz:** "Provayderlər verdikləri internetin sürətinə nəzarət etməlidirlər"*

***Kamran Əsədov:** "Bakıda internet problemi ciddi olmasa da, regionlarda çalışan bir çox müəllim üçün bu çətin məsələdir"*

Distant iş prosesi birbaşa internet resursları tələb etdiyi üçün, bir çox hallarda, problemlər yaranır. Tədris prosesində müəllimlər və tələbələr internetin sürətindən narazı qalırlar. Bildirirlər ki, provayderlərə müraciət etsələr də, problem öz həllini tapmır.

Məsələ ilə bağlı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat katibi Günel Gözəlova bildirdi ki, mütəxəssislərimiz istifadəçilərin fasiləsiz və sürətli internetə çıxışını təmin etmək məqsədilə şəbəkənin təkmilləşdirilməsi istiqamətində profilaktik tədbirlər həyata keçirirlər: "Məlum olduğu kimi, COVID-19 pandemiyası dövründə ölkədə, xüsusilə paytaxtda bir çox şirkət onlayn rejimdə fəaliyyət göstərir və dərslər onlayn qaydada keçirilir. Bununla əlaqədar genişzolaqlı şəbəkədə əhəmiyyətli dərəcədə trafik artımı müşahidə edilir. Bəzən seçdiyi xidmətlər və ya evində yerləşdirdiyi paylayıcı qurğular vətəndaşın bu müddət ərzində artan tələblərinə cavab vermir. Bununla yanaşı, göstərilən xidmətlərin respublika üzrə fasiləsiz təmin edilməsi üçün magistral xətlərə daim nəzarət edilir. Fəaliyyət göstərən özəl internet provayderlərə, həmişə olduğu kimi, dəstək verilir. Onlara imkan yaradılır ki, müştərilərinə kəsintisiz internet xidməti göstərsinlər. Vətəndaşların internet xidmətindən istifadə etməsi və xidmətlərə qoşulması üçün bütün imkanlar yaradılır".

G.Gözəlova onu da əlavə etdi ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən ümumtəhsil müəssisələrinin şagirdləri üçün məsafədən tədris imkanlarının genişləndirilməsinə dəstək məqsədilə müəyyən güzəştlərin tətbiq olunması ilə əlaqədar mobil rabitə operatorlarına müraciət olunub: "Təhsil Nazirliyi tərəfindən bu məqsədlə yaradılmış "Virtual məktəb" layihəsinə dəstək çağırışına artıq "Azercell" qoşulub. Şirkət "Virtual məktəb" portalı üzərindən qeydiyyatdan keçmiş və "Azercell" abunəçisi olan 25 mindən çox müəllim-pedaqoji heyətin mobil nömrə balansına hədiyyə olaraq iki ay ərzində 10 AZN dəyərində 5 GB internet paketi yükləməklə təşəbbüsə öz dəstəyini verir".

Təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, onlayn dərslərdə müəyyən çatışmazlıqlar yaşanır: "Burada ən çox etiraz doğuran məqam internetin zəifliyi, ya da ümumiyyətlə, olmamasıdır. Bakıda internet problemi ciddi olmasa da, regionlarda çalışan bir çox müəllim üçün bu çətin məsələdir. Müəllimlərin əksəriyyətinin interneti yoxdur, meqabaytdan istifadə etsə, o da zəif və çox bahadır. "Zoom" proqramına, "Virtual məktəb"ə qoşulmaq olmur, müəllim yalnız votsap qruplarında dərs keçməli olur. Bölgələrdə çox az müəllim onlayn dərs keçir, şagirdlərin 60-70 faizi onlayn dərslərdə iştirak edə bilmir. Rayonlarda "Virtual məktəb"dən söz gedə bilməz. Uşaqların özünün şəxsi telefonu, kompyuterinin olmaması onların onlayn dərslərdə iştirakına mane olur. Ata və anası işdə olanlar dərslərdə iştirak edə bilmirlər. Buna görə də təhsilin əlçatanlılığı təmin olunmayıb. Digər bir məqam valideynlərin, uşaqların müəllimə yersiz və zamansız səsli, uzun mesajlar yollamasıdır. Bu da müəllimin vaxtını çox alır. Bu qədər şagird və valideynə cavab vermək qeyri-mümkündür. Daha bir problem mobil operatorların internet tarifləri ilə bağlı heç bir güzəşt etməməsi ilə əlaqədardır. Əgər mobil operatorlar və internet provayderləri tərəfindən internet güzəştləri olsa, həm müəllimlər, həm də şagirdlər daha yaxşı nəticələr göstərər, daha həvəsli olarlar. Çünki 40 dəqiqəlik "Zoom" proqramı ilə bir dərsi keçmək müəllimə azı 10 manata başa gəlir. Bunu gündəlik dərslə hesablasaq, müəllim üçün nə qədər baha olduğunu görərik. Şagirdlərə dərs vaxtı kənardan edilən müdaxilələr, kömək cəhdləri, uşaqların müəllimi aldatmaq cəhdləri məsələnin digər mənfi tərəfidir. Yəni cavabları kitaba baxıb vermək halları ola bilir. Çünki müəllim monitordakı görüntülərə eyni vaxtda baxa bilmir. Onlayn dərs şagirdlərin telefon, kompyuter və internetdən asılılığına səbəb ola bilər. Normal dərsə qayıtdıqdan sonra 2 aylıq vərdişin qısa müddətdə aradan qaldırılması inandırıcı deyil. Şagirdlər bundan sonra daha çox telefonu istəyəcəklər. Şagirdlərin sosiallaşmasının, canlı ünsiyyətinin olmaması da ciddi problemlərdəndir. Yalnız virtual münasibətlər formalaşır ki, bu da onların psixoloji dayanıqlılığına mane olur. Yəni biz bilik verə bilirik, amma bacarıqları forlmalaşdıra, onları psixoloji tərbiyə edə bilmirik".

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün sözlərinə görə, provayderlər verdikləri internetin sürətinə nəzarət etməlidirlər: "Provayderlər və telefon qovşağı istifadəçiyə yüksək sürətli internet verməyə borcludur.

Ümumiyyətlə, provayder hər bir şəraiti nəzərə almalı, yüksək göstəricilərə cavab vermək üçün monitorinq keçirməli, xətləri test etməli, antenalar, ötürücülər, həmçinin, şirkətin ofisindəki internet ötürücü avadanlıqları yoxlamalı, yüksək vəziyyətə gətirməlidir. İstifadəçi internet çəkdirən zaman müəyyən sürət seçir və buna əsasən müqavilə bağlayır. Əgər istifadəçidən asılı olmayan səbəblərdən müqavilədə qeyd edilən və hər ay abunəhaqqı ödənilən internet sürəti zəifləyir və ya kəsilirsə, istifadəçi buna görə provayderi məhkəməyə verə bilər".

**Günel CƏLİLOVA**

**Son günlər mediada ölkədə koronavirus pandemiyasına görə tətbiq edilən karantin qaydalarını pozaraq kütləvi şəkildə iftar məclisləri təşkil edənlərlə bağlı məlumatlar yer alır.**

# Pandemiya dövründə də şou-biznes adamları pozucu işlərindən qalmır - iftar süfrələri yenə işə düşüb...



***İsmayıl Əhməd:** "Karantin rejimi ilə əlaqədar olaraq kütləvi iftar məclislərinin təşkil olunması düzgün deyil"*

*"Koronavirusla əlaqədar insanlar özlərini qorumalı və bu qısa müddət ərzində iftarı evdə açmalıdırlar"*

İftar məclislərini təşkil edib sosial şəbəkədə yayanlar isə şou-biznes nümayəndələridir. Onlar öz həmkarları ilə bir araya gəlib iftar süfrəsində iştirak edirlər. Ancaq karantin qaydalarını pozduqlarının fərqində belə deyillər. Həttа təşkil etdikləri kütləvi iftar məclislərini öz "Instagram" hesablarından paylaşırlar.

Qeyd edək ki, hazırda Azərbaycanda karantin rejimi davam edir. Dövlət tərəfindən tətbiq edilən karantin qaydalarına əsasən, bir yerdə beş nəfərdən artıq toplaşmaq, ara məsafəni gözləməmək, maska və əlcəklərdən istifadə etməmək qadağandır. Lakin bəzi şou-biznes təmsilçiləri bu qaydanı pozurlar.

İlahiyyatçı İsmayıl Əhməd bildirdi ki, karantin rejimi ilə əlaqədar olaraq kütləvi iftar məclislərinin təşkil olunması düzgün deyil: "Məlumdur ki, hazırda karantin rejimində yaşadığımız üçün dini ayinlərin icrası ilə də bağlı müəyyən dəyişikliklər edilir. Bununla bağlı Qafqaz Müsəlmanları İdarəsinin də fətvasında qeyd olunurdu ki, bu il Qədr gecəsi məclisləri, əhya mərasimləri camaatla birgə, kütləvi şəkildə icra olunmayacaq. Din xadimləri canlı yayım vasitəsilə insanlara müraciət edirlər. İnsanlar da evlərində həmin ayinləri icra edirlər. Ona görə də kütləvi iftar məclislərinin təşkil olunması düzgün deyil".

Həmsöhbətimiz onu da əlavə etdi ki, iftar süfrələrində hər bir insanın öz ailəsi, doğmaları və yaxınları iştirak edə bilər. Koronavirusla əlaqədar insanlar özlərini qorumalı və bu qısa müddət ərzində iftarı evdə açmalıdırlar. İftar süfrəsi bəhanəsi ilə həddindən artıq kütləvi məclislərin keçirilməsi düzgün deyil.

**Günel CƏLİLOVA**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

**(Doqquzuncu yazı)**

# İgid ömrü

## Körpələrin ağlaşmaması üçün ağızlarına yarpaq salırdılar...

*Vətən çırpınırdı ağrı içində,*
*Qıvrıla-qıvrıla qalmışdı yollar.*
*Qeyrət qılıncını çəkib gedirdi*
*Vətəni anatək sevən oğullar.*

***Nəzakət Məmmədova. "Şəhid zirvəsi"***

Bu sətirləri dünyanı cənginə alan və ölkəmizə, yurddaşlarımızın sağlıq durumuna qədər təsirsiz ötüşməyən "koronavirus" xəstəliyinin pandemiya şəklində tüğyan etdiyi, indiyədək yalnız kitablardan oxuduğumuz "karantində" - koronavirusun dünyanı vahiməyə salması səbəbindən məcburu yaşam tərzimizə çevrilən karantinli günlərimizdə yazıram. Dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da sanki həyat dayanıb, insanlar ümidsizləşib, hər kəs sabaha sağsalamat çıxıb-çıxa bilməyəcəklərinin pessimizmini yaşayır. Şükür ki, gündəlik dəyişən nəticələr arabir müsbət istiqaməti də nişan verir. Bu təzadlı yaşam tərzinin yaratdığı qeyri-müəyyən auranın fonunda biz yenidən toparlanıb Milli Qəhrəmanımızı - Füzuli Rüstəmovu xatırlamağı, onun kimliyinin detallarını oxucularımıza və gələcək nəsillərə çatdırmağı özümüzə borc bilirik. Yolumuz onun işığında elə işıqlığa doğru yön alar inşallah...

...Özünü Xocalısız, Xocalını azərbaycanlılarsız təsəvvür etməyən Füzuli onsuz da Xocalısızlığa tab gətirib dinc dayanmayacaqdı. Bunu onu yaxından tanıyan, təmasda olduğum həmyerliləri, doğmaları dilə gətirir. Bütün maneələrə, düşmən sədlərinə baxmayaraq, Füzulinin gecələr də olsa əvvəllər gizli yollarla Xocalıdan Ağdama gəldiyi kimi, indi də əksinə - Ağdamdan Xocalıya baş çəkəcəyinə, gedib orda ermənilərdən qisas alacağına əminliklərindən bu sözü söyləyirlər. Çünki qəhrəmanımız özünü ata-anasızlıqdan çox, Xocalısız "yetim" sayırmış. Ona görə Füzulinin "Xocalını düşmən əlində" təsəvvür edib tab gətirəcəyi qətiyyən ağlabatan görünmürmüş... Amma hələ buna vardı. Hələ Füzuli xocalılıları "diriykən cəhənnəm əzabı çəkdikləri" o müdhiş gecədən çıxarmaqla məşğul idi. O xocalılılardan biri də Adilə xanımdı axı. Onunla söhbətlərimdən bəzi məqamlarla yenə hüzurunuzdayam.

Adilə: "Onun, elə bil ki, yuxusu yox idi"

**- Siz hələ Xocalıdan tanıyırdız Füzulini?**

- Hə, tanıyırdıq.

**- Nə eşitmizdiniz onun haqqında?**

- Deməli, gəlirdi camaatın içində dayanırdı. Bizim evimiz məhəllənin künc hissəsində yerləşirdi. Hamı - böyük-uşaq yığışırdı başına. Deyirdilər ki, Füzuli bu gecə Ağdama gedibmiş, nə qədər silah gətirib... Yəni tüfəng-filan. Hamı qoçaqlığından danışırdı onun. Qorxmazlığı, igidliyi dillər əzbərinə çevrilmişdi xocalılılar arasında. Bilirsiz, onun elə bil ki, yuxusu yox idi. Mənim kiçik qardaşımın 20 yaşı vardı. Nisbətən yaxın yaşdaydılar deyə, tez-tez görüşürdülər. Nə vaxt eşidirdin, deyirdi ki, Füzuli meşədən təzə keçdi gəldi. Mənim balalarım kiçik idi, onlar da gedib dururdular yanında, qulaq asırdılar, onu bir qəhrəman simvolu kimi sevirdilər. O da necə gedib-qayıtmağından, meşələri, dağları necə keçmələrindən danışardı. Uşaqlar onun fərasətindən gəlib evdə heyranlıqla söhbət açardılar. Allah ona qəni-qəni rəhmət eləsin! Mən həmişə demişəm, deyirəm və deyəcəyəm də. Ölən günümə qədər ona rəhmət oxuyacam. Ona görə ki, mənim o azyaşlı uşaqlarımın Xocalıdan sağ-salamat gəlib çıxmaqlarının başlıca səbəbkarı Füzulidi. Ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adını hələ bir az gec verdilər. O qədər azyaşlının, südəmərin çıxmasının səbəbkarı Füzuli olmuşdu. Elə körpələri deyirəm ki, inanın, onların meşədə ağlaşmaması, sakitləşdirilməsi üçün ağızlarına yarpaq salırdılar. Füzulinin haqqında kitablar yazmaqda hələ çox gecikirik, bu çoxdan yazılmalı idi. Qonşunun Ağdama gedib-gəlmək üçün öz atını ona verməməsi söhbətini, yəqin ki, eşitmisiniz. Qonşu deyib qorxuram. Füzuli isə gecə ilə atı pəyədən çıxarıb minib gedib-qayıdıb gətirib bağlayıb yerində. Atın yiyəsi bir də görüb at qantərin içindədi, bilib ki, bunu ancaq Füzuli minibmiş (gülüşürük).



**- Ağdama qədər gəldiyiniz yol təxminən neçə kilometr olardı?**

- Onu bilmirəm vallah. Çünki biz əvvəllər Xankəndidən Ağdama asfalt yolla gedib-gəlmişdik ancaq. O dəhşətli gecə isə nə qədər yol gəldiyimizi aydınlaşdıra bilmərəm. Amma Füzuli bizi çıxartdı. Yenə də deyirəm. Kaş evli olaydı, o Füzulinin bu dünyada bir yadigarı qalaydı. O övlad da Füzuli kimi qoçaq olardı.

**- Belə qoçaq oğlanları itirdik, üstəlik torpaqlarımız da işğal altına düşdü...**

- (ah çəkir!) Elə gözəl yerlər idi oralar... Alınsa ha, inanın ki, bu Bakı camaatı da qalmaz burda, köç edib orda yaşayarlar hamısı. Mənim bir qudam qubalıdı, o birisi İsmayıllıdandı, bu rayonların ikisində də olmuşam, Qarabağın yerini heç bir rayon vermir. Bizim yerimiz ayrı cür yer idi: havası təmiz, suyu təmiz. Erməni aldı, oturdu içində...

### Koçaryanın oğlu Robert gəlmişdi, iclas eləyirdi...

Adilə Qənbərova, digər həmsöhbətlərimdən fərqli olaraq, həm də Xankəndilərdandı. Onun ailəsi iki dəfə qaçqınlıq həyatı yaşamağa məcbur olub. Xankəndi isə ermənilərin məkrli niyyətlərini həyata keçirdikləri əsas mərkəz sayılırdı. Qarşıda bu şəhərə bu və ya digər şəkildə bağlı olan başqa həmsöhbətlərimi də dinləyəcəksiniz. İndilikdə isə Adilə xanımın hadisələrin başlanğıc anındakı bəzi söhbətlərini və ümumiyyətlə Xankəndi haqqında azacıq da olsa məlumatları yazıya gətirək. Axı yazılarımın anonsunda bildirmişdim ki, Füzuli taleyini Qarabağ taleyindən kənarda tuta bilmərəm. Füzuli özü haqqında kitabda da Qarabağa, Xocalıya səxavətlə yer verməyə bilməzdi. Bunu onun qarşımızda zamanla açılan portret cizgiləri də aydınca göstərir.

Adilə xanımsa Xankəndidə baş verənlərlə ilgili suallarımı çox həssaslıqla cavablandırır. Son sözünü yenə də Füzulinin igidlikləri, mənəvi keyfiyyətləri üzərində qurmaqla:

**- Nə qədər azərbaycanlı yaşayırdı Xankəndidə?**

- Çox. 18 min azərbaycanlı olmuşuq Xankəndidə yaşayan.

**- Amma ermənilər daha çox idi?**

- Elə bil ki. ermənilər zaman-zaman, əlaltından çoxaldı Xankəndidə.

**- Bəs əvvəllər ermənilərlə birlikdə necə yaşayırdınız?**

- Vallah, yaxşı. Düzdü, erməni mənim düşmənimdi. Bu qədər doğmalarımı, millətimi qırıb. Ancaq o zamana qədər rahat yaşayırdıq. Elə bil bir günün içərisində üzləri döndü. Soruşduq, axı sizə birdən-birə nə oldu? Cavab vermədilər. Bunu İrəvan erməniləri, Koçaryangil elədilər. 1988-ci il sentyabrın 18-də evlərimizi yandırdılar gözlərimizin qabağında. Özümüz bom-boş çıxıb gəldik Kərkicahan qəsəbəsinə Xankəndinin. Ordan da Ağdamla danışdılar ki, camaat ac-susuz qalıb çayın kənarında. Onda Ağdamdan 3 böyük İkarus avtobusları göndərdilər.

**- Koçaryan da Dağlıq Qarabağ ermənisi idi?**

- Bəli. Mənim anamgilin evinin qonşuluğunda yaşayırdılar. Hələ 1966-cı ildə Xankəndidə üç azərbaycanlını yandırdılar. Bu zaman Koçaryanın atası şəhər sovetinin sədri işləyirdi. Mən uşaq idim. On bir yaşım vardı. Gördüm qoca nənəm anama deyir ki, Koçaryana Stepanakertdən çıxmaq üçün 24 saat vaxt veriblər. Onu, bir də Manuçarovu çıxardılar. Bu haqq-hesabları da Koçaryanla Manuçarov törədirdi. Sonra da oğlu Koçaryan davam etdirdi. Nə isə, onları çıxardılar göndərdilər İrəvana.

**- Manuçarov yaşayırdı axı Xankəndidə, bağı-villası...**

- Düzdü, Manuçarov sonradan icazə alıb qayıtmışdı Xankəndiyə. Amma Koçaryanın oğlunun qayıtmağı ilə prosesləri yenidən başladılar. Mən ermənilərin içərisində işləyirdim. Dillərini də bilirdim. Bir gün gördüm deyirlər ki, axşamüstü yığışıb gələrsiz "koltsevoy" (Xankəndinin mərkəzində dairəvi yer - N.Z.) deyilən yerə. Mənə dedilər sən gedə bilərsən evə. Səhəri münasibətim yaxşı olan bir iş yoldaşımdan soruşdum nə məsələ idi dünən? Dedi, Koçaryanın oğlu Robert gəlmişdi, iclas eləyirdi. Dedim hə tanıyıram, o mənimlə yaşıddı.

Bax o ata Koçaryanla Manuçarov bu hərəkətləri başlamışdılar, azərbaycanlıların qapısına kağız yazıb atırdılar ki, şəhərdən çıxmalısınız. Hələ Brejnevin hakimiyyəti vaxtlarında bu kağızları çox atırdılar. Atam da yığırdı aparıb verirdi Vilayət Komitəsinə. Sonra yığışdırdılar. Bir də Qorbaçov hakimiyyətə gələn kimi yenidən fəallaşdılar. Mən mühasib işləyirdim. Bir erməni gəlib dedi ki, artıq bu gündən bütün azərbaycanlıları işdən qovacaqlar şəhərdə. Dur get qoy kütlə gəlib səni qovmasın. Durdum geyindim çıxdım getdim. Yoldaşımı da həmin gündən işdən çıxartdılar.

**- Siz Xocalıya gələndə orada yaşadığınız Fin evləri hazır idi?**

- Bəli. Biz üç ay Ağdamda qalıb ora gətiriləndə bu evlər hazır idi. Burda Zamin bizə çox dayaq dururdu. Çayın sahilində, bağ-bağatlı bir evləri vardı. Yığıb onun mer-meyvəsindən də biz qaçqınlara pay gətirirdi. Yəni təkcə qoçaq yox, həm də gözəl insani keyfiyyətlər vardı onda.

Təbii, Adilə xanım. Qəhrəmanlığın bir tərəfi də insaniyyətlikdi. Qanda, gendə insanlıq olmasaydı, nə dediyiniz o qoçaqlıqlar olardı, nə milli qeyrət, nə də bunlardan vəcdə gələrək qanad açan qəhrəmanlıq...

Bu adama heykəl qoyulmalıdı, vallah!

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***

№ 79 (4210) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

16-18 MAY 2020-ci il

www.baki-xeber.com



# Dünyanın ən iri limuzininin əvvəlki görkəmi bərpa olunacaq

**Dünyanın ən iri avtomobili hesab edilən məşhur "American Dream" limuzini amerikalı Mayk Menninq tərəfindən bərpa ediləcək. Avtomobilin ilkin görkəminə qaytarılması prosesi artıq başlanıb.**

AZƏRTAC bildirir ki, "American Dream" ötən əsrin 90-cı illərində kastomayzer Cey Orberq tərəfindən inşa edilib. Orberq dünyada ən iri avtomobili yaratmaq üçün 1976-cı ildə buraxılmış iki "Cadillac Eldorado" limuzinini birləşdirib, ona 26 təkər quraşdırıb, bir neçə motorla təchiz edib. Nəticədə 30,5 mertlik avtomobil alınıb, onun bortunda cakuzi, helikopter meydanı və hovuz yerləşdirilib. "American Dream" son illərdə "Autoseum" muzeyinin anbarında saxlanıb.

Limuzin Menninqin əlinə düşənə qədər acınacaqlı vəziyyətdə olub: onun gövdəsi çox yerdə pas atıb, ön bamperi, faralarından biri, bir neçə təkəri olmayıb. Menninqin sözlərinə görə, limuzinin bərpası bir il çəkə bilər və ən tezi gələn ilin baharında hazır olacaq.

## Qanvermənin faydaları...

**Qanvermə insanın səhhətinə zərər verəcək bir prosedur deyil. Donor tam sağlamdırsa, sağlam mühitdə qan veribsə, bu prosedurun onun üçün zərəri yoxdur.**

"E-tibb.az" bildirir ki, bu barədə Milli Hemotologiya və Transfuziologiya Mərkəzinin açıqladığı məlumatda bildirilir. Məlumatda qeyd olunur ki, bəzi insanlar "qan versəm qanım azalar, infeksiya yoluxar, çəkim artar" kimi fikirdə olurlar. Ancaq mütəxəssislər tam əksini ifadə edərək bildirirlər ki, qan vermək sizi bir çox xəstəlikdən qoruyacaq və daha gənc qalacaqsınız. Bəzi yanlış bilinən fikirlərə aydınlıq gətirək: Qan versəm qanım azalar - İldə 3 və ya 4 dəfə qan verən insanlarda qanın azalması ehtimalı belə yoxdur. Orqanizmimizdəki 5-6 litr qanın təxminən 7 %-i qədər, 400 ml qan götürülür. Donor olduqdan sonra halsızlıq olarsa, gün ərzində içilən bol maye ilə keçəcək. Qan versəm infeksiya yoluxar - Qan alınan zaman istifadə olunan ləvazimatlar, qan torbası tək istifadəlikdir və donorun gözü qaşısında açılır. Steril şəraitdə saxlanan tibbi ləvazimatlar istifadədən sonra atılır. Hər hansı infeksiyanın qanvermə prosesində yoluxması mümkünsüzdür. Qan versəm çəkim artar - Qanvermədən sonra iştahın yaxşılaşması və şirin qidalar istəmə səbəbinə görə belə fikir formalaşıb. Ancaq iştahın açılması keçici vəziyyətdir və artıq çəki almağa gətirməz.

## 600 mindən çox istifadəçi ölkənin ən reytinqli virtual müştəri xidməti aləti olan "Mənim Bakcellim"i seçir

**600 mindən çox aktiv istifadəçisi olan "Mənim Bakcellim" ölkənin mobil operatorları tərəfindən təqdim olunan tətbiqetmələr arasında ən çox seçilən proqramdır.**

Bu aplikasiya 600 min dəfədən çox yüklənilməklə Azərbaycanın telekom tətbiqetmələri arasında ən yüksək reytinqi qazanıb. Bundan əlavə, "Mənim Bakcellim" ümumi reytinqlərdə də yüksək nəticə göstərərək Azərbaycanın ən populyar pulsuz tətbiqetmələri sırasında yer alıb. Həmçinin, istifadəçilərin 83 faizi bu tətbiqetməyə 5+ reytinqini verib. Abunəçiləri ən üstün müştəri təcrübəsi ilə təmin etmək məqsədilə iki il bundan əvvəl istifadəyə verilmiş bu virtual müştəri xidmətləri aləti məlumat mərkəzinə zəng etmədən və xidmət mərkəzinə getmədən mobil nömrə ilə istənilən əməliyyatı həyata keçirmək üçün çox rahat və sadə üsuldur. "Mənim Bakcellim"dən tamamilə pulsuz istifadə edən abunəçilər eyni zamanda balans, aktiv bonuslar, istifadə etdikləri xidmət və ya məhsulun qüvvədən düşmə tarixi, balansda qalan meqabaytlar və nömrə barədə digər məlumatları asanlıqla əldə edə bilirlər. Bundan əlavə, "Mənim Bakcellim" istifadəçiləri zəng olunmuş nömrələrin siyahısı, zənglərin vaxtı və müddəti və sərf olunmuş məbləğlər daxil olmaqla nömrənin istifadə tarixçəsinə aid bütün məlumatlara tam nəzarət edirlər. Həmçinin, "Bakcell" xidmətlərinə aid suallara tez bir zamanda cavab almaq üçün onlayn çat funksiyası vasitəsilə "Bakcell" əməkdaşları ilə əlaqə saxlamaq mümkündür. "Bakcell" öz abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etmək üçün böyük işlər görür. Biz "Mənim Bakcellim"i bazarda ən seçilən və ən yüksək reytinqlərə malik olan aplikasiya kimi görməkdən çox məmnunuq. "Ookla" tərəfindən dəfələrlə ən üstün və ən sürətli mobil şəbəkə olaraq tanınan "Bakcell" şəbəkəsi vasitəsilə abunəçilərimizə yüksək keyfiyyətli xidmət göstərmək üçün əlimizdən gələni etməyə davam edəcəyik", - deyə "Bakcell" şirkətinin baş icraçı direktoru Rainer Ratgeber bildirib. "Mənim Bakcellim" mobil tətbiqetməsini Android və iOS sistemləri ilə çalışan cihazlar üçün "Google Play" və "Appstore" portallarından pulsuz yükləmək olar. Qeyd edək ki, qeydiyyatdan keçəndən sonra abunəçilər kompyuter və planşet kimi cihazlarda "Mənim Bakcellim" proqramının "desktop" versiyasından yararlana bilərlər. Daha ətraflı məlumat və proqramı yükləmək üçün linklər https://www.bakcell.com/az/my-bakcell səhifəsində yerləşdirilib.


## Elan

Əmirov Ramiz Bəybala oğlunun adına bakı şəhəri, Əmircan qəsəbəsi, E.Həsənov 85, mən 21 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vasif Cəlil oğlunun adına Bakı şəhəri, Nərimanov rayonu, Xan Şuşinski küçəsi ev 33, mənzil 6, Xan Şuşinski küçəsi ev 33, mənzil 9, Xan Şuşinski küçəsi ev 33, mənzil 5, Sabit Rəhman küçəsi ev 32, mənzil 13, Sabit Rəhman küçəsi ev 32, mənzil 8, Sabit Rəhman küçəsi ev 32, mənzil 12, Sabit Rəhman küçəsi ev 32, mənzil 5, Xan Şuşinski küçəsi ev 33, mənzil 4, Sabit Rəhman küçəsi ev 30, mənzil 13, Sabit Rəhman küçəsi ev 32, mənzil 7, Sabit Rəhman küçəsi ev 32, mənzil 1-in çıxarışları (kupça) itdiyi üçün etibarsız sayılır.

İsmayılov Nazim Cəlil oğlunun adına Bakı şəhəri, Nərimanov rayonu, Xan Şuşinski küçəsi ev 33, mənzil 2, Sabit Rəhman küçəsi ev 32, mənzil 4, Xan Şuşinski küçəsi ev 33, mənzil 7-nin çıxarışları (kupça) itdiyi üçün etibarsız sayılır.






**Qoç** - Uzunmüddətli planlar qurmaq məsləhət deyil: sonradan onlara düzəliş etmək qanınızı qaraldacaq. Planlaşdırılmayan görüşlər mümkündür. Heç görmək istəmədiyiniz bir insanla rastlaşa bilərsiniz.



**Buğa** - Ünsiyyət üçün əla gündür, ətrafınızdakıları yaxşı anlayır və deməkolar ki, onları "oxuyursunuz". Eyni zamanda özünüz də başqaları üçün açıq kitab kimisiniz. Bu isə düşmənlərinizin xeyrinədir.



**Əkizlər** - İşdə problemlər yarana bilər. İşinizə layiqli qiyməti vermirlər, bu isə sizi çox kədərləndirir. Alış-veriş etməyin. Bu gün sizə tamamilə lazım olmayan əşyalar almağa meyllisiniz.



**Xərçəng** - Mənasız və yorucu vurnuxmalar başınızı qatacaq. Hansısa planları həyata keçirməyə çalışırsınız, ancaq müqavimətlə qarşılaşırsınız, gücünüzü maneələri dəf etməyə tükədirsiniz.



**Şir** - İşgüzar və şəxsi ünsiyyətdə müəyyən çətinliklərin olmasına baxmayaraq, əsl dost və etibarlı tərəfdaşlar tapmaq şansınız var. Evinizin təmiri, abadlaşdırılması ilə, iş yerinizin yeni avadanlıqla təchizi ilə məşğul ola bilərsiniz.



**Qız** - Günün emosional fonu xoşagələn deyil, mənəvi tarazlığınızı asanlıqla itirirsiniz. Əsəbilik, səbəbsiz qəzəb tutmaları mümkündür. Bürcün bir çox nümayəndələri bu yaxınlaradək güvəndikləri insanlara şübhə ilə yanaşmağa başlayırlar.



**Tərəzi** - Yaxınlarınızı nəyin narahat etdiyini anlamaq həmişə mümkün olmur. Bəzən qaba və xətrədəyən iradlar bildirirsiniz. Günün ikinci yarısı ünsiyyətdə həddən artıq ehtiyatlı olun, çünki kimsə sizi yanıltmağa çalışacaq.



**Əqrəb** - Qohumlarınızın və sevdiyinizin dəstəyinə ehtiyacınız var? Gözləməyin. Sizə elə gələcək ki, hamı sizdən üz döndərib və siz öz problemlərinizlə başbaşa qalmısınız. Axşama doğru şərait dəyişəcək.



**Oxatan** - Uzun müddət böyük zəhmət bahasına qurduqlarınız dağılmaq üzrədir. Nüfuzlu və güclü düşmənlərlə vuruşmalı olursunuz. Mənfi tendensiyaların təsiri ilə mübarizə aparmaq üçün gücünüz çox azdır.



**Oğlaq** - Həyatınıza yeni nəsə qatmağa çalışmaqla əvvəllər çox dəyər verdiklərinizi dağıdırsınız. Bir çox Oğlaqlar mövcüd əlaqələri qırmaq həvəsinə düşəcək və bu həvəslərini təcili olaraq yerinə yetirməyə çalışacaqlar.



**Dolça** - İşlərdə uğur, sərfəli sövdələşmələr və maraqlı işgüzar təkliflər vəd edir. Əsas odur ki, vaxt itirməyəsiniz, mümkün qədər tez hərəkət edib, enerjili və məqsədyönlü olasınız. İşdəki bəzi münaqişələri yoluna qoymaq şansınız var.



**Balıqlar** - Mənfi tendensiyaların təsiri çox güclüdür. Bunlara müqavimət göstərmək çox çətindir. Bütün gün xoşagəlməz emosiyalara qapılır, nahaq yerə narahatlıq keçirir, depressiyanın dərin qatlarını öyrənirsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bomba zərərsizləşdirən robot dezinfeksiya vasitəsinə çevrildi

**Koronavirus epidemiyası səbəbilə artan dezinfeksiya ehtiyacı üçün bir müdafiə təyinatlı firma bomba zərərsizləşdirən robotunu təmizlik robotuna çevirdi.**

ODTÜ və "ElektroLand" firmasının birgə əməkdaşlıqla hazırladığı robot insan gücünün istifadə edilə bilmədiyi yerlərdə tətbiq ediləcək.

Tankın üzərinə 180 dərəcə dönə bilən, uzunmüddətli təsir gücünə sahib, incə püskürtmə edə bilən bir püskürdücü əlavə olundu. Ətrafındakı virusları, mikroorqanizmləri təsirsiz hala gətirməsi üçün ultrabənövşəyi işığa sahib, 8 saat kəsilməz işləyə bilən lampalar əlavə olundu. Robot GSM şəbəkəsi olan hər yerdə uzaqdan əmrlə idarə edilə bilir. Lazım olarsa, xəstə otaqlarına yemək və ya dərman apara biləcək formada uyğunlaşdırıla biləcək robotun həm epidemiya müddətində, həm də epidemiyadan sonra xəstəxana xidmətlərində istifadə edilməsi planlaşdırılır.

*Hazırladı: Namiq QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.